# *ALİ MƏCLİSİN İCLASI*

*8 dekabr 2023-cü il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini **Anar İbrahimov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar, bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının növbəti iclası keçirilir. Hamınızı salamlayıram. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında protokolun mənə verdiyi məlumata əsasən 45 deputatdan 35 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 35 |
| Yetərsay | 31 |

Bildiyiniz kimi Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və Ali Məclisin Daxili Nizamnaməsinə görə ən azı 31 deputat parlamentin işində iştirak etməlidir. Yetərsayımız olduğu üçün iclas öz işinə başlamağa səlahiyyətlidir.

Bu günkü iclasımızda Naxçıvan Muxtar Respublikasının Baş naziri hörmətli Səbuhi müəllimin başçılığı ilə hökümət üzvləri iştirak edir, onları da salamlayıram. Bir də xatırlatmaq istəyirəm ki, sizə verdiyimiz gündəlikdən başqa bu gün Naxçıvan Muxtar Respublikasının Baş naziri tərəfindən Ali Məclisə yeni təqdimat daxil olmuşdur. Təqdimatla Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması təklif olunmuşdur. Müvafiq olaraq həmin məsələ gündəliyimizə əlavə edilmişdir.

Beləliklə, iclasın gündəliyinə aşağıdakı məsələlər verilir:

1.“Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi (birinci oxunuş).

2. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin yeni üzvlərinin seçilməsi.

3. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması.

4. Cari məsələlər.

Gündəliyə əlavəsi olan varsa, xahiş edirəm münasibət bildirsin. Əlavəsi olan yoxdur, beləliklə deputatlardan kim iclasın gündəliyinin təklif etdiyim qaydada qəbul edilməsinə tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |
| Nəticə: Qəbul edildi | |

Biz iclasın iş qaydasını müəyyənləşdirməliyik.

Hörmətli deputatlara və müzakirələrdə iştirak edəcək hökümət üzvlərinə xatırlatmaq istəyirəm ki, Ali Məclisin Daxili Nizamnaməsinə əsasən biz reqlamenti nəzərə almalıyıq. Ona görə təklif edirəm ki, məruzə üçün 30 dəqiqəyədək, əlavə məruzə üçün 20 dəqiqəyədək, yekun söz üçün isə 15 dəqiqəyədək zaman ayrılsın. Həmçinin müzakirələrdə iştirak edənlər üçün 10 dəqiqəyədək, təkrar çıxışlar üçün 5 dəqiqəyədək, prosedur məsələləri ilə bağlı arayışlar üçün isə 3 dəqiqəyədək zaman nəzərdə tutulmuşdur. Müzakirələrdə iştirak edən deputatlardan və hökümət üzvlərindən reqlamenti nəzərə almalarını xahiş edirəm.

Beləliklə, hörmətli deputatlar! Hörmətli hökümət üzvləri və sessiya iştirakçıları! Gündəlikdə duran ilk məsələ “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin birinci oxunuşda müzakirəsidir.

Məlum olduğu kimi 28 noyabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 26-cı maddəsi və 32-ci maddəsinin 9-cu bəndini rəhbər tutaraq, eləcə də “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinə uyğun olaraq “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsini Ali Məclisə təqdim etmişdir. Qanun layihəsi ilə bərabər büdcə zərfinə daxil olan digər sənədlər də parlamentə daxil olmuş, materiallar dərc edilərək deputatlara və büdcə müzakirələrinin digər iştirakçılarına verilmişdir. Bundan başqa 30 noyabr 2023-cü il tarixdə qanun layihəsi Ali Məclisin və Nazirlər Kabinetinin rəsmi orqanı olan “Şərq qapısı” qəzetində dərc edilmiş, qəzetin internet resursunda yerləşdirilmiş və ictimai müzakirəyə təqdim edilmişdir.

4 dekabr 2023-cü il tarixdə qanun layihəsi üzrə aparıcı komitə təyin olunan Ali Məclisin İqtisadi siyasət komitəsinin “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsinin müzakirəsi üçün Ali Məclis komitələrinin, muxtar respublikanın aidiyyəti dövlət orqanlarının nümayəndələrinin və digər rəsmi şəxslərin iştirakı ilə birgə iclası keçirilmişdir. Birgə iclasda aparılmış müzakirələrdən sonra büdcə layihəsinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbəti iclasına təqdim olunması qərara alınmışdır.

Qanun layihəsi barədə məruzə etməsi üçün söz Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılova verilir.

**H.İsmayılov,** *Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət üzvləri!

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində gəlirlər 173 milyon 105 min manat proqnozlaşdırılır ki, bu məbləğ 2023-cü ilin büdcə gəlirləri ilə müqayisədə 20 milyon 883 min manat və ya 13,7 faiz çoxdur.

Nəzərdə tutulan gəlirlərin 164 milyon 75 min manatı və ya 94,8 faizi Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmaların payına düşür ki, bu məbləğ 2023-cü illə müqayisədə 17 milyon 193 min manat və ya 11,7 faiz artıq planlaşdırılır.

Büdcə gəlirlərinin 5 milyon manatı və ya 2,9 faizi gömrük orqanları tərəfindən təmin edilən daxilolmaların payına düşür ki, bu da 2023-cü illə müqayisədə 3 milyon 850 min manat və ya 4,3 dəfə artıq planlaşdırılır.

Gəlirlər üzrə proqnozun 4 milyon 30 min manatının və ya 2,3 faizinin büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxil olması proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 160 min manat və ya 3,8 faiz az planlaşdırılır.

2024-cü ildə ayrı-ayrı gəlir növləri üzrə daxilolmalar aşağıdakı kimi proqnozlaşdırılır:

- Fiziki şəxslərin gəlir vergisi büdcə daxilolmalarının 24 faizini təşkil etməklə 41 milyon 590 min manat nəzərdə tutulur ki, bu göstərici 2023-cü illə müqayisədə eyni səviyyədədir;

- Hüquqi şəxslərin mənfəət vergisi büdcə daxilolmalarının 4,7 faizini təşkil etməklə 8 milyon 200 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 700 min manat və ya 9,3 faiz çoxdur;

- Hüquqi şəxslərin torpaq vergisi büdcə daxilolmalarının 0,2 faizini təşkil etməklə 300 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 30 min manat və ya 11,1 faiz çoxdur;

- Hüquqi şəxslərin əmlak vergisi büdcə daxilolmalarının 1,1 faizini təşkil etməklə 1 milyon 900 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 300 min manat və ya 18,8 faiz çoxdur;

- Əlavə dəyər vergisi büdcə daxilolmalarının 29,7 faizini təşkil etməklə 51 milyon 350 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 7 milyon 500 min manat və ya 17,1 faiz artıq planlaşdırılır;

- Sadələşdirilmiş vergi büdcə daxilolmalarının 2,1 faizini təşkil etməklə 3 milyon 690 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 500 min manat və ya 11,9 faiz az planlaşdırılır;

- Aksiz vergisi büdcə daxilolmalarının 28,4 faizini təşkil etməklə 49 milyon 208 min manat nəzərdə tutulur ki, bu tədiyyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 8 milyon 808 min manat və ya 21,8 faiz çox planlaşdırılır;

- Yol vergisi büdcə daxilolmalarının 2,9 faizini təşkil etməklə 5 milyon manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 3 milyon 850 min manat və ya 4,3 dəfə artıq planlaşdırılır;

- Mədən vergisi büdcə daxilolmalarının 0,7 faizini təşkil etməklə 1 milyon 200 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 200 min manat və ya 20 faiz çox planlaşdırılır;

- Dövlət mülkiyyətində olan torpaqların icarəyə verilməsindən daxilolmalar büdcə gəlirlərinin 0,1 faizini təşkil etməklə 140 min manat vəsait nəzərdə tutulur ki, bu göstərici 2023-cü illə müqayisədə eyni səviyyədədir;

- Dövlət rüsumu üzrə daxilolmalar büdcə gəlirlərinin 3,7 faizini təşkil etməklə 6 milyon 387 min manat məbləğində vəsait nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 305 min manat və ya 5 faiz artıq proqnozlaşdırılır;

- Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar büdcə gəlirlərinin 2,3 faizini təşkil etməklə 4 milyon 30 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 160 min manat və ya 3,8 faiz az planlaşdırılır;

- Vergi orqanlarının xətti ilə toplanan sair daxilolmalar büdcə gəlirlərinin 0,1 faizini təşkil etməklə 110 min manat nəzərdə tutulur ki, bu tədiyə növü üzrə daxilolmalar 2023-cü illə müqayisədə 150 min manat və ya 57,7 faiz az planlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində muxtar respublikanın şəhər və rayonları üzrə gəlirləri 62 milyon 781 min manat, o cümlədən "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ 150 min manat, yerli xərclər 51 milyon 925 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsinin məbləği 19 milyon 377 min manat, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılması nəzərdə tutulan vəsaitin yuxarı həddi 8 milyon 671 min manat məbləğində nəzərdə tutulmuşdur.

Növbəti ildə Naxçıvan şəhəri, Babək, Şərur və Kəngərli rayonlarının büdcələri dotasiyasız olmaqla, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarının büdcələri isə muxtar respublikanın mərkəzi xərclərindən dotasiya ayrılmaqla planlaşdırılır.

2024-cü il üzrə şəhər və rayon büdcələri "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna aid olan məbləğ istisna olmaqla Naxçıvan şəhəri üzrə gəlirləri 36 milyon 812 min manat, xərcləri 18 milyon 44 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 18 milyon 768 min manat, Şərur rayonu üzrə gəlirləri xərclərinə bərabər olmaqla, 7 milyon 679 min manat, Babək rayonu üzrə gəlirləri 5 milyon 864 min manat, xərcləri 5 milyon 255 min manat, gəlirlərin yerli xərclərdən artıq olan və mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 609 min manat, Ordubad rayonu üzrə gəlirləri 2 milyon 990 min manat, xərcləri 5 milyon 519 min manat, dotasiya 2 milyon 529 min manat, Culfa rayonu üzrə gəlirləri 3 milyon 80 min manat, xərcləri 5 milyon 537 min manat, dotasiya 2 milyon 457 min manat, Şahbuz rayonu üzrə gəlirləri 2 milyon 588 min manat, xərcləri 4 milyon 468 min manat, dotasiya 1 milyon 880 min manat, Kəngərli rayonu üzrə gəlirləri xərclərinə bərabər olmaqla, 3 milyon 14 min manat, Sədərək rayonu üzrə gəlirləri 604 min manat, xərclər 2 milyon 409 min manat, dotasiya 1 milyon 805 min manat məbləğində proqnozlaşdırılır.

2024-cü ildə Azərbaycan Respublikasının mərkəzləşdirilmiş xərclərindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə verilən dotasiya - transfertin yuxarı həddi 343 milyon 260 min manat təşkil edir ki, bu, 2023-cü ilin göstəricisi ilə müqayisədə 109 milyon 531 min manat və ya 24,2 faiz az planlaşdırılır.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində xərclər 516 milyon 365 min manat məbləğində proqnozlaşdırılır ki, bu məbləğ 2023-cü ilin büdcə xərcləri ilə müqayisədə 88 milyon 648 min manat və ya 14,7 faiz azdır.

Büdcə xərclərinin 458 milyon 692 min 950 manatı, yaxud 88,8 faizi cari xərclər üzrə, 57 milyon 672 min 50 manatı və ya 11,2 faizi isə əsaslı xərclər üzrə proqnozlaşdırılır.

İqtisadi təsnifata uyğun olaraq 2024-cü ilin büdcə layihəsində əməyin ödənişinə büdcə xərclərinin 63,5 faizi həcmində və ya 328 milyon 80 min 74 manat, malların, iş və xidmətlərin satın alınmasına büdcə xərclərinin 16 faizi həcmində və ya 82 milyon 498 min 379 manat, subsidiyaların ödənilməsinə büdcə xərclərinin 6,3 faizi həcmində və ya 32 milyon 306 min 544 manat, qrantlar və digər ödənişlərə büdcə xərclərinin 1,9 faizi həcmində və ya 9 milyon 969 min 756 manat, sosial ödənişlərə büdcə xərclərinin 1,1 faizi həcmində və ya 5 milyon 838 min 197 manat, qeyri-maliyyə aktivlərinin alınmasına isə büdcə xərclərinin 11,2 faizi həcmində və ya 57 milyon 672 min 50 manat vəsait ayrılması nəzərdə tutulur.

2024-cü il Naxçıvan Muxtar Respublikasının büdcə layihəsində sosialyönümlü xərclərin xüsusi çəkisi 67 faiz səviyyəsində, 346 milyon 208 min 714 manat məbləğdə nəzərdə tutulur ki, bu, 2023-cü ilin analoji göstəricisindən 18,8 faiz və ya 80 milyon 17 min 986 manat azdır.

Növbəti ilə büdcə xərcləri funksional təsnifat üzrə aşağıdakı kimi proqnozlaşdırılır:

- Qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının fəaliyyəti köməkçi bölməsi üzrə büdcə xərclərinin 13,9 faizi həcmində 71 milyon 756 min 868 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu 2023-cü ilin müvafiq xərcləri ilə müqayisədə 3 milyon 283 min 640 manat və ya 4,4 faiz azdır;

- Elm köməkçi bölməsi üzrə büdcə xərclərinin 0,6 faizi həcmində 3 milyon 143 min 506 manat vəsait proqnozlaşdırılır ki, bu, 2023-cü ilin eyni xərci ilə müqayisədə 6 milyon 925 min 6 manat və ya 68,8 faiz azdır;

- Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq bölməsi üzrə büdcə xərclərinin 17,2 faizi həcmində 88 milyon 675 min 725 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu 2023-cü ilin müvafiq xərci ilə müqayisədə 7 milyon 842 min 635 manat və ya 9,7 faiz çoxdur;

- Təhsil bölməsi üzrə büdcə xərclərinin 31,1 faizi həcmində 160 milyon 831 min 186 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2023-cü ilin analoji göstəricisi ilə müqayisədə 12 milyon 302 min 545 manat və ya 7,1 faiz azdır;

- Səhiyyə bölməsi üzrə büdcə xərclərinin 2,3 faizi həcmində 11 milyon 937 min 343 manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu, 2023-cü ilin göstəricisi ilə müqayisədə 2 milyon 528 min 507 manat və ya 17,5 faiz azdır;

- Sosial müdafiə və sosial təminat bölməsi üzrə büdcə xərclərinin 1,8 faizi həcmində 9 milyon 136 min 226 manat vəsait proqnozlaşdırılır ki, bu, 2023-cü ilin müvafiq xərci ilə müqayisədə 53 milyon 345 min 249 manat və ya 85,4 faiz azdır;

- Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 5 faizi həcmində 25 milyon 800 min 855 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2023-cü ilin eyni xərci ilə müqayisədə 1 milyon 118 min 609 manat və ya 4,2 faiz azdır;

- Mənzil və kommunal təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 3,6 faizi həcmində 18 milyon 632 min 520 manat vəsait proqnozlaşdırılır ki, bu, 2023-cü ilin analoji göstəricisi ilə müqayisədə 2 milyon 467 min 480 manat və ya 11,7 faiz azdır;

- Kənd təsərrüfatı bölməsi üzrə büdcə xərclərinin 9,1 faizi həcmində 47 milyon 130 min 951 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu 2023-cü ilin müvafiq xərci ilə müqayisədə 10 milyon 736 min 109 manat və ya 18,6 faiz azdır;

- Ətraf mühitin mühafizəsi bölməsi üzrə büdcə xərclərinin 3 faizi həcmində 15 milyon 536 min 745 manat vəsait proqnozlaşdırılır ki, bu, 2023-cü ilin eyni xərci ilə müqayisədə 1 milyon 289 min 801 manat və ya 7,7 faiz azdır;

- İqtisadi fəaliyyət bölməsi üzrə büdcə xərclərinin 10,5 faizi həcmində 54 milyon 75 min 586 manat vəsait proqnozlaşdırılır ki, bu, 2023-cü ilin analoji göstəricisi ilə müqayisədə 2 milyon 729 min 644 manat və ya 4,8 faiz azdır;

- Əsas bölmələrə aid edilməyən xidmətlər bölməsi üzrə büdcə xərclərinin 1,9 faizi həcmində 9 milyon 707 min 489 manat vəsait ayrılması nəzərdə tutulur ki, bu, 2023-cü ilin müvafiq xərci ilə müqayisədə 2 milyon 242 min 543 manat və ya 30 faiz çoxdur.

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fonduna gəlirləri xərclərinə bərabər olmaqla, 5 milyon 870 min manat vəsait proqnozlaşdırılır ki, bu da 2023-cü ilin analoji göstəricisi ilə müqayisədə 3 milyon 850 min manat və ya 2,9 dəfə çoxdur.

Muxtar respublikada bütün dövlət qurumları üçün xüsusi müdafiə olunan ciddi hesabat blanklarının hazırlanması və çapının təşkili üçün 120 min 625 manat, həmçinin dövlət təltiflərinin hazırlanması məqsədilə növbəti ilin büdcə layihəsində 65 min 880 manat məbləğində vəsait planlaşdırılmışdır.

Təhsil və səhiyyə sahəsində dövlət proqramlarının maliyyə təminatının həyata keçirilməsi məqsədilə təhsil sisteminin informasiyalaşdırılması, texniki peşə təhsilinin inkişafı tədbirləri və STEAM təlim-tədris mərkəzi üçün 1 milyon 161 min 237 manat, şəkərli diabet, xroniki böyrək çatışmazlığı, hemofiliya, talassemiya və səhiyyə sahəsindəki digər tədbirlər üçün 5 milyon 55 min 605 manat vəsait nəzərdə tutulur.

Növbəti ilin büdcə layihəsində nəqliyyat və rabitə köməkçi bölməsi üzrə 17 milyon 115 min 763 manat məbləğində vəsait proqnozlaşdırılmışdır ki, bu vəsaitin 16 milyon 600 min manatı avtomobil yollarının saxlanılması, əsaslı və cari təmir xərcləri üçün, 515 min 763 manatı isə "Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti" publik hüquqi şəxsinə verilən subsidiya üçün nəzərdə tutulmuşdur.

Növbəti ilin büdcə layihəsində dövlət əsaslı vəsait qoyuluşu, investisiya xərcləri üçün 22 milyon manat məbləğində vəsait nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsi, subsidiyaların ödənilməsi üçün 2024-cü il büdcə layihəsində 10 milyon 300 min manat məbləğində vəsait nəzərdə tutulur.

Hörmətli deputatlar, növbəti büdcə ili ərzində maliyyə orqanları tərəfindən büdcənin qanunvericiliyə uyğun icrası istiqamətində bütün zəruri tədbirlər həyata keçiriləcək, büdcə vəsaitlərinin qanunauyğun və səmərəli istifadəsinə dövlət nəzarəti gücləndiriləcəkdir. Sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Həsən müəllim, əyləşə bilərsiniz. Qeyd edim ki, sizin məruzəniz əsasında olan tezislər büdcə zərfində qeyd olunmuşdur, deputatlar bir daha həmin bölməni açıb tanış ola bilərlər.

Çıxış üçün söz verilir aparıcı komitə kimi təyin olunan İqtisadi siyasət komitəsinin sədri İsa İsayevə. Xatırlatmaq istəyirəm ki, bundan sonrakı çıxışçılar yerlərindən çıxış edə bilərlər.

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət üzvləri!

Əvvəlcə sizi salamlayıram. Məlumat üçün bildirirəm ki, 4 dekabr 2023-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilmişdir. İclasın gündəliyində bir məsələ müzakirəyə çıxarılmışdır. Naxçıvan Muxtar Respublikası Maliyyə

Nazirliyinin təqdim etdiyi “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsi müzakirə edilmişdir. Müzakirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət və Hüquq siyasəti komitələrinin 13 üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının əməkdaşları, Nazirlər Kabinetinin üzvləri, Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin rəisi, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri və digər rəsmi şəxslər iştirak etmişlər.

Müzakirədən öncə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Həsən İsmayılov “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsini iclas iştirakçılarının diqqətinə çatdıraraq qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə gəlirləri 173 milyon 105 min manat, xərcləri 516 milyon 365 min manat, fiskal siyasəti tənzimləmək məqsədilə ayrılan dotasiya 343 milyon 260 min manat məbləğində nəzərdə tutulur. Eyni zamanda layihədə mərkəzləşdirilmiş və yerli gəlirlərin, eləcə də mərkəzləşdirilmiş və yerli xərclərin də açıqlamasını edərək, toplantı iştirakçılarına geniş məlumat verdi.

Sonra məruzə ətrafında Ali Məclisin digər komitə sədrləri və üzvlərinin, eləcə də dəvət olunmuş hökumət nümayəndələrinin iştirakı ilə təqdim olunan Qanun layihəsinin geniş müzakirəsi aparıldı. Müzakirə zamanı çıxışlarda Qanun layihəsinə irad, təklif və tövsiyələr ifadə olundu.

Müzakirə zamanı deputatlar və digər iştirakçılar tərəfindən bəzi sahələrə ayrılmalı olan xərclərin də azaldığı diqqətə çatdırıldı və bununla bağlı təkliflər irəli sürülərək gələcəkdə bu cür halların nəzərə alınması diqqətə çatdırıldı.

Müzakirə ətrafında çıxış edənlər büdcə xərclərində muxtar respublikada aqrar sahəyə, suvarma sistemlərinə, elm və təhsil sahəsinə yönəldilən xərclərin və digər iqtisadi fəaliyyət sahələrinə ayrılan büdcə xərclərinin də azalmasını qeyd etdilər. Çıxış edənlər gender bərabərsizliyinin aradan qaldırılması məqsədi ilə qadın hüquqlarının qorunması istiqamətində əlavə tədbirlərin görülməsinə də ehtiyac olduğunu bildirdilər. Eyni zamanda ünvanlı dövlət sosial yardımı və əhalinin sosial müdafiəsi sahəsində xərclər barədə də məlumat vermək məruzəçidən xahiş olundu.

Büdcə layihəsinin müzakirəsi zamanı yaranan mübahisəli məsələlərə iclasda iştirak edən aidiyyəti hökumət nümayəndələri tərəfindən aydınlıq gətirildi.

Lakin yaranan fikir ayrılıqlarına, tövsiyə və təkliflərə Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini arqument gətirərək bildirdi ki, ölkəmizdə büdcə sisteminin təşkili, büdcənin xərc maddələri üzrə strukturunun tərtibi, onun təsdiqi, icrası mexanizmi və ona nəzarətin təşkili “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanunu ilə tənzimləndiyindən, bu layihə hazırlanarkən həmin Qanunun tələbləri nəzərə alınmışdır.

Sonda iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsi məruzə və çıxışları ümumiləşdirərək, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsinin ilkin müzakirə üçün VI çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü ilin payız sessiyasının növbəti iclasına çıxarılmasına dair qərar qəbul etdi.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim. Çıxış üçün söz Hüquq siyasəti komitəsinin sədri deputat İsmayıl Qəribliyə verilir.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri*.

Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət üzvləri!

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin qəbulu prosesi əhəmiyyətli və yaddaqalan oldu. Belə ki, ilk dəfə olaraq muxtar respublikanın büdcəsi haqqında qanun layihəsi dərc olundu, bu da maliyyə şəffaflığının və ictimai iştirakçılığın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Həmçinin Ali Məclisin komitələrinin birgə iclasında hökumət üzvləri ilə Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin ilkin müzakirəsi keçirildi, büdcənin məzmunu ilə bağlı dəyərli fikirlər irəli sürüldü ki, bu da çatışmazlıqların müəyyən edilməsi və müzakirə mədəniyyətinin təkmilləşdirilməsi baxımından faydalı oldu. Mən Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin layihəsini uğurlu hesab edirəm. Belə ki, 2023-cü ilin büdcəsi ilə müqayisədə gəlirlərin 20 milyon 883 min manat artırılması, xərclərin 88 milyon 648 min manat azaldılması, habelə dotasiyanın 109 milyon 531 min manat məbləğində azaldılması nəzərdə tutulur. Demək olar ki, bütün bəndlər üzrə gəlirlərin mənbələrində artım müşahidə olunur. Ümid edirəm ki, müsbət dinamika növbəti illərdə də qorunub saxlanacaq.

İndi isə seçicilərimlə görüşdə onların qaldırdıqları bir sıra mühüm məsələləri diqqətinizə çatdırmaq istəyirəm:

Bildiyiniz kimi, deputat seçildiyim Şərur rayonu aqrar rayondur, son illər yağıntıların azalmasına görə, əkinlərin suvarma suyu ilə təminatında ciddi problemlər qeydə alınır. Sakinlər keçirdiyimiz bütün görüşlərdə 2024-cü ildə bu problemlərin həlli üçün hansı tədbirlərin görüləcəyi ilə maraqlanır. Mən də “Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyindən bu məsələ ilə bağlı hansı işlərin görüləcəyini və büdcədə meliorasiya tədbirləri üçün nəzərdə tutulmuş vəsaitdən nə qədərinin yeni artezian quyularının qazılmasına və suvarma xətlərinin çəkilməsinə ayrılacağını öyrənmək istəyirəm. Digər bir məsələ müvafiq yaşa çatmış uşaqların bağçalara qəbul ilə bağlıdır. Hazırda 113 mindən çox əhalinin yaşadığı Şərur rayonunda cəmi 1 uşaq bağçası fəaliyyət göstərir. Rayonda bağça sayının az olması işləyən valideynlərin uşaqlarının bağça ilə təmin edilə bilməməsinə, həmçinin ali təhsil müəssisələrini məktəbəqədər təhsil ixtisası üzrə bitirmiş şəxslərin işsizlik probleminə gətirib çıxardır. Ona görə də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyindən bu problemin həlli üçün hansı tədbirlərin görüləcəyi barədə məlumat almaq istəyirəm.

“Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun xərclər hissəsinin 7.3.4-cü maddəsində “Məhkəmə qərarlarının icrası üçün xərclər” göstərilsə də, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Qanun layihəsində belə müddəa nəzərdə tutulmayıb. Onu soruşmaq istərdim ki, əgər gələcəkdə məhkəmə xərcləri yaranarsa, qərarların icrası ilə bağlı, bu, necə maliyyələşdiriləcəkdir?

Hələlik büdcə ilə bağlı bu məsələlərə toxunmaq istəyirəm, cari məsələlərin müzakirəsi zamanı digər sahələrlə bağlı fikirlərimi bildirəcəm.

Sonda büdcə zərfinin hazırlanmasında iştirak edən bütün dövlət qurumlarına təşəkkürümü bildirirəm və büdcə layihəsinin birinci oxunuşda qəbul olunmasına səs verəcəyimi bildirirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim. Növbəti çıxış üçün söz Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədovaya verilir.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar və sessiya iştirakçıları!

Mən də hər birinizi salamlayır, çıxış üçün söz verdiyinizə görə təşəkkür edirəm. Ulu Öndər tərəfindən əsası qoyulan sosial-iqtisadi siyasət strategiyası 2003-cü ildən Azərbaycan Respublikasının Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam və inkişaf etdirilir. Belə ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların daha çox qeyri-neft sektoruna yönəldilməsi, insan kapitalının ön plana çıxarılması həyata keçirilən uğurlu siyasətin ana xəttini təşkil etmişdir. Bu gün büdcə zərfinin müzakirəsi aparılır. Mən də, həmçinin müvafiq məsələləri hökumət üzvlərinin diqqətinə çatdırmaq istəyirəm. Belə ki, büdcə zərfində olan bir neçə sahəyə ayrılan vəsaitin azalma səbəbini, həmçinin əsas sahələrdən biri olan meliorasiya sahəsinə toxunmaq istərdim. Bu məsələ ilə bağlı aid quruma yazılı məktub ünvanlamışdım və qurum tərəfindən yaşadığım zonada əhalinin içməli suya olan tələbatı ilə bağlı məlumatlar qeyd edilmişdir. Amma diqqətimi çəkən təkcə içməli su məsələsi deyil, eyni zamanda suvarma suyudur. Qeyd edim ki, bu gün büdcə zərfində Arpaçayın sağ və sol sahil kanallarının təmirinə maliyyə vəsaiti ayrılıb və təmir işləri gedir. Lakin, həmin kanalların mənbəyində yerləşən-Aşağı Yaycı, Yuxarı Yaycı, Gümüşlü, Şahbulaq kəndlərinə sonuncu dəfə suvarma suyu 2023-cü ilin iyul ayında verilibdir. Həmin yerlərdə əhalinin dolanışıq mənbəyi bağçılıq olduğu üçün suvarma suyunun verilməsinin yubadılması onlar üçün müəyyən çətinliklər yaradır.

Büdcə zərfində Culfa, Şərur, Babək rayonlarında ailə mərkəzlərinin yaradılması qeyd olunub. Gender bərabərliyi baxımından qadınların hüquqlarının qorunmasını və onların əməyinin hər bir sahədə nəzərə alınmasını, eləcə də qadın sığınacaqlarının yaradılmasını xahiş edirəm.

Kənd təsərrüfatı məhsullarının istehsalında artım olduğu halda, qiymətlərdə də artım müşahidə olunur, eləcə də dərmanların satışında da fərqli qiymətlər ilə rastlaşırıq. Əlavə olaraq şəkərli diabet xəstələri üçün nəzərdə tutulan dərmanlarda bəzi vaxtlarda azalmalar müşahidə olunur. Bunları nəzərə alaraq bu sahələrdə qiymətlərin tənzimlənməsi və müvafiq dərman ehtiyatlarının yaradılması diqqətdə saxlanılsın. Həmçinin muxtar respublikada kənd və məhəllədaxili yolların da asfaltlanması üçün tədbirlərin görülməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Yeganə xanım. Çıxış üçün söz verilir sonuncu aparıcı komitə olan Humanitar siyasət komitəsinin sədri Elman Cəfərliyə.

**E.Cəfərli,** *Ali Məclisin Humanitar siyasət komitəsinin sədri.*

Hörmətli Anar müəllim! Hörmətli deputatlar, hörmətli muxtar respublika hökumətinin üzvləri!

Biz bu gün muxtar respublikanın əsas maliyyə planı olan büdcənin geniş müzakirəsini keçiririk. Bu müzakirə həm də 2023-cü il avqustun 1-də təsdiqlədiyimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni Daxili Nizamnaməsinin 18 və 19-cu maddələrində nəzərdə tutulan qaydada keçirilir. Xatırladım ki, Daxili Nizamnamənin 18.1-ci maddəsinə əsasən biz büdcə haqqında qanun layihəsini üç oxunuşda müzakirə etməliyik və bu gün ilk dəfə olaraq bir qanun layihəsinin – Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin ilk oxunuşda müzakirəsi baş tutur.

İlk növbədə, büdcə haqqında qanun layihəsinin ilk dəfə mətbuatda bu il noyabrın 30-da dərc olunaraq, ictimai müzakirəyə çıxarılması mütərəqqi addım kimi xüsusi qeyd edilməlidir. Bundan başqa, uzun illər sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisində parlamentlər üçün tamamilə xarakterik olan işgüzar müzakirə mühitinin yenidən canlandırılmasının nümunəsi kimi, bir

neçə gün əvvəl, dekabrın 4-də Ali Məclisin İqtisadi siyasət komitəsinin genişləndirilmiş iclasında muxtar respublikanın 2024-cü il büdcə layihəsinin geniş müzakirəsinin keçirilməsi də büdcə tərtibi prosesinə mühüm töhfə olmuşdur.

Mən də Ali Məclisin Humanitar siyasət komitəsinin sədri kimi, 2024-cü il büdcəsinin İqtisadi siyasət komitəsində keçirilən müzakirələrində yaxından iştirak etmişəm. Buna görə də icazənizlə, faydalı bir presedenti – büdcə haqqında qanun layihəsinin geniş müzakirələrini birlikdə formalaşdırmağa başladığımız bu günlərdə müşahidələrim əsasında gəldiyim qənaəti sizlərlə bölüşmək istəyirəm.

Şübhəsiz ki, büdcə, ilk növbədə, maliyyə sənədidir, lakin onun siyasi əhəmiyyəti iqtisadi xarakterindən heç də az deyil. Hər şeydən əvvəl büdcə hökumətin illik və çoxillik məqsədlərinə necə nail olunacağını göstərən mərkəzi siyasət sənədidir. Büdcəyə nəzər yetirməklə, hökumətin iqtisadi, sosial, elm, təhsil, hərbi və sair bu kimi sahələrdə siyasətinin prioritetlərini müəyyənləşdirmək çətin deyil. Büdcə bu istiqamətlərin, eləcə də mövcud və yeni proqramların maliyyələşdirilməsi ilə yanaşı, fiskal siyasətin həyata keçirilməsində əsas alətdir. Xarici maraqlı tərəflər də dövlətin davamlılığını və etibarlılığını qiymətləndirərkən büdcə sənədinin keyfiyyətinə və büdcə tərtibatına baxırlar. Qanunlar, qaydalar və cəmiyyətin digər faktorları ilə birgə fəaliyyət kimi hökumətin digər siyasət alətləri ilə yanaşı, büdcə planları və istəkləri reallığa çevirmək məqsədi daşıyır. Üstəlik, büdcə vətəndaşlarla dövlət arasında dövlət xidmətləri göstərmək üçün resursların necə yığıldığını və ayrıldığını göstərən müqavilədir. Aydındır ki, bu sənəd aydın, şəffaf, hesabatlı və etibarlı olmalıdır.

Elə bir dövrdə yaşayırıq ki, büdcə tərtibini artıq müstəsna olaraq mərkəzi hökumətlərin ixtiyarında olan məsələ saymaq bəsit yanaşma olardı: bu, milli və regional hökumətlərin həm üfüqi, həm də şaquli, bütün səviyyələrini əhatə edən bir prosesdir. Büdcə sistemləri və prosedurları hökumətin bütün səviyyələrində prinsipial olaraq konsensual, aydın və ardıcıl olmalıdır. Üstəlik, büdcə tərtibatı hökumətin digər fəaliyyət kanallarından ayrılmış, təcrid olunmuş bir proses deyil. Yaxşı büdcə tərtibatı müasir dövlət idarəçiliyinin müxtəlif sütunları tərəfindən dəstəklənir və öz növbəsində həmin sütunları dəstəkləyir və özündə dürüstlük, açıqlıq, iştirakçılıq, hesabatlılıq və milli məqsədlərin planlaşdırılması və əldə edilməsinə strateji yanaşmanı ehtiva edir. Beləliklə, büdcə tərtibatı dövlətlə vətəndaş arasında etimad quruculuğunun mühüm təməl daşıdır.

Milli və regional səviyyələrdə mövcud olan büdcələrin formalaşması və onlara məxsus çatışmazlıqların həll olunması sosial gərginliyin də birbaşa həllinə gətirib çıxarır.

Ancaq hər halda dövlət büdcəsi maliyyə büdcəsinin əsas hissəsi olmaqla, bir maliyyə planı kimi öyrənilir. Muxtar respublika əhalisinin rifah halının yüksəldilməsi, onun həm iqtisadi, həm də sosial inkişafının təminatı muxtar respublikanın büdcə xərclərindən asılıdır. Bu bir faktdır ki, bütövlükdə ölkəmizdə və o cümlədən də, muxtar respublikamızda iqtisadiyyatın gücləndirilməsi və möhkəmləndirilməsində əsas rol dövlətin təşkilatçılıq fəaliyyətinin üzərinə düşür ki, bu əsas rolu da mərkəzi maliyyə fondu olan büdcə oynayır. Ona görə də muxtar respublikanın maliyyə sistemi və xüsusən büdcə sisteminin nəzəri və praktiki problemləri yaxşı dərk olunmalı, düzgün tərtib olunmalı və əsaslı surətdə həll olunmalıdır.

Bütün bu qeydlərimiz büdcənin tərtibi və icrası prosesinin ölkəmizin ayrılmaz hissəsi olan muxtar respublikamızda son bir il ərzində regionun ictimai-siyasi, sosial-iqtisadi, hüquqi və elmi-mədəni sahələrdə ölkənin əsas hissəsinə üzvi şəkildə hərtərəfli və sürətli inteqrasiyası üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən başladılan islahatlara adekvat fəaliyyət göstərmək niyyətindən irəli gəlir.

Biz bu gün "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsinin başlıca müddəalarını müzakirə edirik, qanun layihəsinin ümumi konsepsiyasına qiymət veririk. Təbii olaraq, layihə ilə bağlı qarşıya bir sıra suallar çıxır. Bütün bu müzakirə prosesi, düşünürəm ki, qanunauyğundur və faydalı olacaqdır.

Yeri gəlmişkən, mən də məndən əvvəl çıxış edən yoldaşların səsləndirdiyi suallara qoşularaq, eyni zamanda təkrarçılıqdan qaçaraq büdcə layihəsi ilə tanışlıq zamanı diqqətimi cəlb edən bir məsələ barədə hökumətin mövqeyini öyrənmək istərdim:

"Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanununun 7.1.5-ci bəndində seçkilərin keçirilməsi ilə bağlı vəsait nəzərdə tutulsa da, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsində müvafiq məsələ, yəni seçkilərin keçirilməsi ilə bağlı xərclər əks olunmayıb. Xatırladım ki, Azərbaycan Respublikasının 2022 və 2023-cü illər büdcəsində də müvafiq vəsait ayrılmışdı. Əgər gələn il, yəni 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı qərar qəbul olunarsa, seçkilər üçün vəsait necə təmin olunacaq? Seçkilərin baş tutması üçün zəruri olan vəsaitin ayrılması hansı formada həyata keçiriləcək?

Şübhəsiz ki, biz, muxtar respublikanın qanunverici orqanının üzvləri olaraq qanun layihəsinin qəbul edilməsinin zəruriliyini tamamilə başa düşürük. Bu baxımdan Ali Məclisin Humanitar siyasət komitəsinin büdcə haqqında qanun layihəsi ilə bağlı mövqeyinin İqtisadi siyasət komitəsinin təqdim olunmuş rəyi ilə uzlaşdığını diqqətinizə çatdırmaq istəyirəm.

Qeyd edim ki, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi muxtar respublika hökumətinin səmərəli fəaliyyətinin nəticəsi kimi qiymətləndirilməlidir. Aydın görünür ki, büdcə layihəsinin hazırlanmasında açıqlıq, şəffaflıq, dürüstlük, hesabatlılıq əsas prinsiplər kimi götürülmüşdür və bu, dövlət başçımız cənab İlham Əliyev tərəfindən muxtar respublikada həyata keçirilən islahatların ruhuna uyğundur. Ümidvaram ki, biz muxtar respublika parlamenti olaraq, eyni zamanda muxtar respublika hökuməti qarşıdakı və sonrakı illərdə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərəncamının icrası istiqamətində üzərimizə düşən vəzifələrin layiqincə həyata keçirilməsində birgə fəaliyyət göstərə biləcək, həm Dövlət Proqramının icrasını uğurla başa çatdıracaq, həm də muxtar respublika büdcəsinin xərclərinin ən azı əhəmiyyətli hissəsinin dotasiyasız formalaşdırılmasına nail olacağıq.

Təklif edirəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsi əsas götürülməklə, "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Qanun layihəsi birinci oxunuşda qəbul edilsin, söylənilmiş təkliflər və iradlar nəzərə alınmaqla, onun üzərində iş davam etdirilsin. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Arxa cərgələrdə əyləşən deputat yoldaşlardan soruşmaq istəyirəm ki, səs hamıya gəlib çatır? Problem yoxdur ki? Çox sağ olun. Burada Elman müəllim bir məsələyə toxundu. İcazə versəniz bir məsələni yeri düşmüşkən hörmətli deputatların və hökumət üzvlərimizin nəzərinə çatdırım. Qeyd edilən məsələ ilə bağlı bilirsiniz ki, bizdə iki deputatımız vəfat edib və onların yeri boşdur. Qanunvericiliyə görə istənilən zaman onların yerinə seçkilər keçirilə bilər. Mən, bu məsələlər komitə iclasında qaldırıldıqdan sonra müvafiq qurumlardan, Mərkəzi Seçki Komissiyasından xahiş etdim ki, təxmini bir smeta müəyyənləşdirsinlər ki, boş qalmış 2 dairə üzrə bizim xərclər nə qədər olacaq. Təxminən 2 dairə üzrə 40 min 600 manat vəsait lazımdır. Mən hörmətli hökumət üzvlərindən xahiş edirəm ki, bu məqamı gələcək müzakirələrdə nəzərə alsınlar. Əlavə olaraq mənim məlumatım var ki, komitə iclaslarında geniş müzakirələr oldu, burada da qeyd olundu. Deputat həmkarlarımdan kim çıxış etmək istəyirsə, münasibətini bildirmək üçün müraciət edə bilər. Sədərək rayonundan olan deputatımız Vüsalə xanım Əliyeva. Buyurun.

**V.Əliyeva.** Hörmətli Anar müəllim, hörmətli deputatlar və sessiya iştirakçıları!

Mən də komitə sədrlərinin dediyi fikirlərə qatılıram. Təqdirəlayiq haldır ki, büdcə layihəsinin müzakirəsi bizim məclisdə bu şəkildə həyata keçirilir. Mən 2023-2027-ci illəri əhatə edən Dövlət Proqramına, eləcə də bizə verilən büdcə zərfinə baxdım, Şərur, Kəngərli və Sədərək rayonlarında ailə mərkəzlərinin yaradılacağına və Şərur şəhərinin mərkəz olacağına rast gəldim. Sədərək qədim yurd yerimizdir, Azərbaycan Respublikasının Türkiyə ilə yeganə quru sərhəddi məhz Sədərək rayonu ilədir. Ümummilli Liderimizin sözləri ilə desək, "Sədərək Naxçıvanın qeyrət qalasıdır". Gün keçdikcə inkişaf edən muxtar respublikanın inkişafı Sədərəkdən də yan keçmədi. Demək olar ki, bütün inzibati idarə binaları, səhiyyə ocaqları əsaslı təmir olunub və ya yenidən tikilərək istifadəyə verilib. Həqiqi mənada, günü-gündən gözəlləşən, inkişaf edən bir Sədərəyi görmək insana zövq verir, qürurverici bir hal yaşadır. Qeyd etmək istədiyim məsələ isə mərkəz Heydərabad qəsəbəsində işıqlandırma olduğu halda Sədərək kəndinin, eləcə də Sədərək kəndini Heydərabad qəsəbəsinə, Qaraağac və Dəmirçi kəndlərinə birləşdirən mərkəzi küçələrdə işıqlandırma probleminin olmasıdır. Belə ki, havanın qaranlıq vaxtlarında yolla irəlilədiyimiz zaman çox maneə ilə qarşılaşa bilərik. Bu gün büdcə zərfinin müzakirəsində Sədərək rayonunun küçələrinin işıqlandırılması üçün müxtəlif texniki avadanlıqların alınmasına, müvafiq tədbirlərin görülməsinə maliyyə vəsaitinin ayrılmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüsalə xanım. Hörmətli deputatlar əvvəlcə qeyd olunsa da, bir məsələni yenidən diqqətinizə çatdırım ki, bu tip qanun layihəsi üç oxunuşda qəbul olunur. Daxili Nizamnamənin tələbini Elman müəllim qeyd etdi. Həmin müddəanı bir daha hamınızın diqqətinə çatdırmaq istəyirəm. Qanun layihəsinin birinci oxunuşu zamanı bizdən tələb olunan büdcə qanununun qəbul edilməsində zəruri olan əsas müddəaların müzakirə edilməsi, yəni qanun layihəsinin ümumi konsepsiyasına qiymət verilməsidir. Qanun layihəsini daha detallı ikinci oxunuşda bənd-bənd müzakirə etmək imkanımız olacaq. Kim əlavə söz almaq istəyir? Əmir Babayev, buyurun.

**Ə.Babayev.** Hörmətli Anar müəllim, hörmətli deputatlar və sessiya iştirakçıları!

Büdcə zərfində müxtəlif sahələr üçün müəyyən vəsaitlər ayrılıb. Məni narahat edən, Ümummilli Liderimiz Heydər Əliyevin də xüsusi önəm verdiyi təhsilin inkişafı üçün muxtar respublikanın büdcə zərfində nəzərdə tutulmuş vəsaitin azaldılmasıdır. Bilmək istəyirəm ki, təhsilə ayrılmış o vəsaiti müəyyən qədər artırıb 2023-cü ilin həcmində saxlamaq olmazdımı? Eyni zamanda mən gənclər siyasətinə toxunmaq istəyirəm. Bu, böyük və geniş sahədir. Bu sahədə biz apardığımız işlərin hamısını ölkəmizin gələcəyinə hesablayırıq. Amma büdcə zərfində gənclər siyasətinin həyata keçirilməsi və bədən tərbiyəsi üçün nəzərdə tutulmuş vəsait heç 1 milyon manat həcmində də deyil. Bu sahəyə cəmi 618 min manat vəsait nəzərdə tutulub. Bunu da bilmək istəyirəm ki, bu sahəyə niyə bu qədər az vəsait nəzərdə tutulur? Eyni zamanda bir məsələni də qeyd etmək istəyirəm ki, büdcə zərfində ehtiyat fondlar var. Ayrı-ayrı sahələr üzrə ehtiyat fondlar müəyyənləşir, Naxçıvan Muxtar Respublikasının ehtiyat fondu da cəmi 2 milyon manat həcmindədir. Muxtar respublikamız kəskin kontinental iqlimə malik bir ərazidir. Buranın yayı isti, qışı çox soyuq olur. Burada iqlimlə bağlı bütün fəsillərdə müəyyən hadisələr ola bilər. Eyni zamanda Naxçıvan Muxtar Respublikası tektonik zonada yerləşir. İstənilən vaxt təbii hadisələr baş verə bilər. Bilmək istəyirəm ki, 2 milyon manat fövqəladə hallar üçün kifayət edəcəkmi?

Həmçinin seçildiyim 5 nömrəli Alışar seçki dairəsində olan bəzi problemləri diqqətə çatdırım. Belə ki, Şərur rayonunda ümumiyyətlə su böyük problemdir. Bu sahədə görülən işlər hələ ki, kifayət etmir. Bəzi tədbirləri həyata keçirməklə bu problemi qismən də olsa həll etmək olar. Alışar, Qorçulu, Muğanlı, Çomaxtur kəndləri Arazqırağı kəndlər sayılır. Bu kəndlərə su gəlib çatmadığından Arpaçayın suyundan istifadə edə bilmirlər. Lakin Araz çayında qoyulan nasoslar vasitəsi ilə həmin ərazilərə su çıxarmaq mümkün olur. Təəssüflər olsun ki, havanın isti keçən vaxtlarında o nasosları çox az işlədirlər. Doğrudur, bununla vəsaitə, elektrik enerjisinə qənaət edilir. Amma Şərur əhalisi xüsusən də kənd təsərrüfatı ilə məşğul olur. İnsanlar bəzən torpaqlarını əkməyə tərəddüd edirlər, "əkəcəyəm, görəsən, yayda məhsulumu götürmək üçün su tapa biləcəyəmmi?" Bax, bu tərəddüd insanların torpağa münasibətini dəyişir. Əgər büdcədə ayrılan vəsait nasos məsələsini həll etməyə imkan verirsə, xahiş edirəm hökumət üzvləri bunu da nəzərə alsın. Bir də qeyd etmək istəyirəm ki, adıçəkilən kəndlərdə kəndarası yollar abadlaşıb, amma kənddaxili yollar bərbad vəziyyətdədir. Mənə elə gəlir ki, bu sahəyə də vəsait ayrılsa sakinləri müəyyən qədər razı sala bilərik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əmir müəllim. Ehtimad müəllim, buyurun.

**E.Məmmədov.** Hörmətli Anar müəllim, hörmətli Səbuhi müəllim, hörmətli hökumət nümayəndələri, deputatlar və mətbuat nümayəndələri!

Dünya təcrübəsində yaxşı idarəetməni təmin edən əsas təsnifatlardan biri parlamentdir. Parlament yaxşı idarəetməyə özünün üç funksiyası ilə təsir edir: Qanunvericilik, təmsilçilik və nəzarət.

Nəticə etibarilə biz seçiciləri təmsil edirik, fəaliyyətimiz onların problemlərinin həlli ilə bağlı məsələlər qaldırmaq, cəmiyyətə bütöv halda faydalı olan qanunlar qəbul etmək və bu qanunların icrasına nəzarət etməkdən ibarətdir.

Mənim sualım su təsərrüfatı üzrə xərclərin müəyyənləşdirilməsi və dəqiqləşdirilməsi ilə bağlıdır. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Qanununun xərclər hissəsinin 7.8.3-cü maddəsində su təsərrüfatı ilə bağlı vəsait nəzərdə tutulsa da bizdə belə bir maddə əks olunmayıb. Əgər muxtar respublikada Dövlət Su Ehtiyatları Agentliyi yaranarsa, maliyyələşməsi üçün büdcədən əlavə vəsait ayrılacaqmı?

Dekabrın 5-də Milli Məclisin payız sessiyasında Azərbaycan Respublikasının Baş naziri hörmətli Əli Əsədov çıxışında bildirmişdir ki, mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ilin dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır. Bu vəsaitdən Naxçıvan Muxtar Respublikası üçün də nəzərdə tutulubmu? Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Buyurun İsa müəllim.

**İ.Məmmədov.** Büdcə layihəsi üzrə funksional bölmənin 6-cı köməkçi bölməsi üzrə Naxçıvan Muxtar Respublikasına yanacağın daşıyıcılar tərəfindən daşınması üçün çəkilən əlavə xərclərin Naxçıvan Muxtar Respublikası büdcəsindən deyil, müvafiq şirkətlər tərəfindən qarşılanması məqsədəmüvafiq hesab olunur. Belə ki, son iki-üç il bundan əvvələ qədər daşınma xərcləri müvafiq şirkətlər tərəfindən həyata keçirilib. Əlavə olaraq 10 milyon manat vəsaitin subsidiya kimi bizə verilməsi dotasiyanın şişirdilməsinə səbəb olur. Xahiş edirəm 2024-cü il büdcənin dürüstləşməsi zamanı bu məsələyə mütləq nəzarət olunsun.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim, əslində vacib məsələlərdən birini səsləndirdiniz. Bəli, büdcədə dürüstləşməyə gedib, bu haqda sizə məlumat veriləcək. O xərclər ki, regional həlqəyə daxil deyil, yəni birbaşa mərkəzə aiddir, hökumət də, Ali Məclis də, səlahiyyətli nümayəndəlik də çalışır ki, onların mərkəzə ötürülməsini təmin etsin. Və bununla bağlı işlər görülüb və görüləcəkdir. Çox sağ olun.

Başqa çıxış etmək istəyən varmı? Buyurun, Fərəc müəllim.

**F.Fərəcov.** Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət üzvləri!

Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə zərfi ilə mən də tanış oldum. “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi və sonrakı üç il üçün büdcə layihəsi sessiyanın müzakirəsinə verilmişdir. Bu mühüm sənəd “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” ilə əlaqəli şəkildə hazırlanmışdır. Büdcə zərfindən bir daha aydın olur ki, başlıca məqsəd muxtar respublikanın iqtisadi qüdrətini daha da artırmaq, digər bütün sahələrin dirçəlişini təmin etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına dəstək göstərməkdir. 2024-cü il və sonrakı üç il üçün büdcə layihəsinə diqqət yetirəndə büdcə gəlirlərinin, o cümlədən yerli gəlirlərin ildən-ilə artmasını görürük. Təbii ki, bununla yanaşı, büdcə xərclərinin ardıcıl artımı da proqnozlaşdırılır. Bütün bunlar isə görüləcək işlərin çoxluğundan və çoxşaxəli olacağından xəbər verir. Büdcə zərfi muxtar respublikanın strateji coğrafi mövqeyini, bu gününü və sabahını nəzərə almaqla hazırlanıb. Böyük əmək sərf olunub. Həm də peşəkarlıqla tərtib edilib. Mənə elə gəlir ki, unudulan sahələr qalmayıb. İndi əsas məsələ onun qəbul olunub uğurla həyata keçirilməsidir. Mən qısaca olaraq bəzi məqamlara diqqət çəkmək istəyirəm. Muxtar respublika əsasən kənd təsərrüfatı diyarıdır. Bu bölgədə ərzaq bolluğu kənddən asılıdır, bu da su ehtiyatlarının artırılmasını zəruri edir. Büdcə zərfində kəhrizlərdən də söhbət açılır. Culfa rayonunun Dizə və Gülüstan kəndləri sakinlərinin ümdə arzusu isə ərazilərindəki vaxtilə köklü su mənbəyi kimi fəaliyyət göstərən kəhrizləri yenidən cana gətirməkdir. Xüsusilə Dizə kəndi bir neçə ildir ki, suvarma suyuna həsrət qalıb, susuzluqdan payız əkinləri də demək olar ki, aparılmayıb. Başqa vacib məsələlərdən biri də odur ki, kəndli min bir zəhmətlə ərsəyə gətirdiyi üzümü, meyvə-tərəvəzi, heyvandarlıq məhsullarını bazara çıxarıb pula çevirməkdə çətinlik çəkir. Buna görə də yerlərdə uyğun emal müəssisələrinin, qəbul məntəqələrinin yaradılmasına ciddi ehtiyac duyulur. Zərfdə göstərildiyi kimi ən gəlirli sahələrdən olan baramaçılığın və ipəkçiliyin bərpası məqsədi ilə yer ayrılması da alqışlanmalıdır. Ölkəmizin sürətli inkişafı və əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün şəhər və kəndlərimizdə kiçik və orta sahibkarlığın inkişafına diqqət yetirmək, dövlət dəstəyi göstərmək günümüzün prioritetlərindən olmalıdır. Bütün bunlar lazımi səviyyədə həyata keçirilsə dövlət büdcəsindən asılılığı minimuma endirmək olar. Sonda isə muxtar respublikamızın ən iri yaşayış məntəqələrindən biri olan Culfa rayonunun Yaycı kənd sakinlərinin arzu və istəyini sizlərə çatdırmaq istəyirəm. Onların xahişi kənddaxili yolların dövlət səviyyəsində əsaslı təmirinin həyata keçirilməsi və burada uşaq bağçasının inşa edilməsidir. İndi bu barədə yəqin ki, bir cavab veriləcək. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Fərəc Müəllim. Başqa çıxış etmək istəyən varmı? Buyurun, Nüsrət müəllim.

**N.Həsənov.** “Naxçıvan Muxtar Respublikasının 2024-cü ilin büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun layihəsi birinci oxunuşda müzakirə olunur. Mən də bu

müzakirələrə qoşularaq əvvəl çıxış edən, öz fikirlərini söyləyən deputat yoldaşlarımın fikirlərinə qoşuluram və birinci oxunuşda bu layihənin qəbul olunmasını istəyirəm. Çünki bu layihənin hazırlanması ilə əlaqədar təbii ki, böyük işlər görülübdür, konsepsiya hazırlanıb, bənd-bənd, maddə-maddə çox incə detallara qədər toxunulub. Burada zəhməti olan insanların əziyyətlərinə yüksək dəyər və qiymət verirəm. Sadəcə bu müzakirələrlə bağlı bəzi məsələlər var ki, deputat yoldaşlarım bu məsələlərə toxundular. Təbii ki, mən də bir həkim olaraq səhiyyə ilə bağlı istərdim bir məsələyə fikrimi və münasibətimi bildirəm. Ulu Öndərimiz Heydər Əliyev demişdir: Azərbaycanın milli müstəqilliyi onun milli sərvəti olduğu kimi, Azərbaycan xalqının hər bir vətəndaşının sağlamlığının qorunması milli müstəqillik üzərində sahibkarlığın təminatçısıdır. Bəli, bu gün milli dövlətimizi qorumaq, onu möhkəmləndirmək, hərtərəfli inkişaf etdirmək üçün mütləq sağlam nəsil yetişdirməliyik. Sağlam gələcəyə, müstəqil dövlətimizə sağlam insanlar hədiyyə etməliyik. Büdcədə nəzərdə tutulmuş səhiyyə ilə bağlı olan faiz göstəriciləri əvvəlki illərlə müqayisədə nisbətən azaldılmışdır. Xahiş edirəm ki, səhiyyə ilə bağlı məsələlərdə büdcədə ayrılmış vəsaiti nəzərdən keçirəsiniz. Faiz nisbətinin artırılmasına diqqət yetirilsin. Digər bir tərəfdən büdcənin müzakirəsi ilə əlaqədar büdcədə gəlir mənbələri qeyd olunmuşdur. Bu gəlir mənbələrində 2.8.1-ci maddədə göstərilmişdir ki, xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi 5 milyon manat nəzərdə tutulub. Qeydiyyatı hara olan avtonəqliyyat vasitələri sahiblərinin nəzərdə tutulduğuna istərdim aydınlıq gətirilsin və bizim büdcəmizə bu qədər vəsaiti gətirə biləcəkmi?

Üçüncü bir təklifim var, istərdim o təklifi səsləndirəm. Hörmətli Anar müəllim, hörmətli deputatlar, dəyərli hökumət nümayəndələri!

Biz indi gəlir mənbələri və xərclərdən söhbət edirik. “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununun 3-cü fəsil, 29-cu bəndinə əsasən Naxçıvan Muxtar Respublikası büdcəsinin icrasına nəzarəti Azərbaycan Respublikasının Hesablama Palatası və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir. Buna baxmayaraq, Ali Məclisdə büdcəyə nəzarət strukturu varmı? Dövlət orqanlarında və təşkilatlarda büdcə vəsaitinin xərclənməsində şəffaflığın təmin edilməsinin səmərəliliyinin və hesabatlılığının artırılması məqsədi ilə təklif edirəm ki, Ali Məclisdə Büdcəyə nəzarət sektoru yaradılsın. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Nüsrət müəllim. Bu sonuncu sual Ali Məclisə aid olduğuna görə çalışacağam həmin sualı cavablandırım. Başqa sualları təbii ki, hörmətli hökumət üzvləri cavablandıracaqlar. Düzgün qeyd edirsiz ki, büdcə haqqında qanunun tələblərinə görə muxtar respublika büdcəsinin icrasına Ali Məclis Hesablama Palatası ilə birlikdə nəzarət edir və Ali Məclisdə belə struktur yoxdur. Biz bu haqda məsləhətləşmələr aparmışıq və hökumətin də dəstəyini almaqla maliyyə mənbələri axtaracağıq ki, Ali Məclisdə Büdcəyə nəzarət sektoru yaradılsın. Bilirsiniz ki, Ali Məclis büdcəyə nəzarəti bir neçə formada həyata keçirir. Həm ixtisaslaşmış strukturu vasitəsi ilə, yəni sektor yaradılması ilə, həmçinin gələn ilin yaz sessiyasında büdcəni müzakirə etməklə büdcəyə nəzarət imkanları olacaqdır ki, bu da nəzarətin bir formasıdır. Mənim deyəcəklərim hələki bu qədərdir. Əlavə çıxış etmək istəyən varmı? Buyurun, Hacıfəxrəddin müəllim.

**H.Səfərli.** Hörmətli Anar müəllim, hörmətli deputatlar, hörmətli hökumət nümayəndələri!

İlk növbədə diqqətinizi bir məsələyə çəkmək istəyirəm. 5 iyun 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 2023-2027-ci

illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nı təsdiq edib. Dövlət Proqramında qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin maliyyə mənbələri göstərilibdir. İlk növbədə, 7 mənbəə göstərilibdir. Bu mənbələrin birincisi Azərbaycan Respublikasının dövlət büdcəsi, ikincisi Naxçıvan Muxtar Respublikasının büdcəsi və digər mənbələrdir. Hökumət üzvlərindən xahiş edərdim ki, bu proqramın yerinə yetirilməsi istiqamətində büdcə layihəsində hansı tədbirlərin nəzərdə tutulduğunu və proqramın icrası ilə bağlı nə qədər vəsaitin ayrıldığını cavablandırsın.

İkincisi son illərdə Naxçıvan Muxtar Respublikasında xüsusilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 2002-ci il 7 avqust tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsinin yaradılması Naxçıvan Muxtar Respublikasında elmin bütün sahələrinin inkişafında çox mühüm rol oynayıbdır. Həmçinin çox böyük işlər də görülüb, nəailiyyətlər, uğurlar əldə olunubdur. Ancaq indi elm adamlarından ən böyük tələblərdən biri xarici arxivlərdə, Vatikan, Avropa, Sankt-Peterburq, Moskva, Tbilisi, Türkiyə arxivlərində saxlanılan Naxçıvanla bağlı mənbələrin Naxçıvana gətirilməsi məsələsi qoyulubdur. Ona görə çox xahiş edərdim ki, elm sahəsinə ayrılan vəsaitdə xarici ezamiyyələrə ayrılan vəsait artırılsın. Çünki bölmədə sentyabr ayında 2 nəfər Türkiyəyə material toplamaq üçün səfər etdi, üçüncü nəfərin getməsinə vəsait çatmadı. Bu məsələyə də diqqət yetirilməsini sizdən xahiş edirəm.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər Dövlət Proqramı”nda təhsil, xüsusilə ali təhsil sahəsində çox mühüm vəzifələr qarşıya qoyulubdur. Misal üçün Naxçıvan Dövlət Universitetində ingilisdilli tibb fakültəsinin yaranması, tibbi tədqiqat klinikasının yaranması və s. Bunlar çox mühüm məsələlərdir və buna görə də cənab Prezidentə təşəkkürümüzü bildiririk ki, belə bir məsələləri bu Proqramda əks etdiribdir. Mən xahiş edirəm ki, bu məsələlərə də dövlət büdcəsindən vəsait ayrılsın.

Ən mühüm məsələlərdən birinə mən hörmətli deputatların diqqətini çəkmək istəyirəm. Bu, gənc ailələrin məişət şəraitinin, həyat səviyyəsinin yaxşılaşdırılması məsələsidir. Bilirik ki, uşaq artımının azalması məsələsi artıq Azərbaycan ərazisində, ümumiyyətlə, dünyada xüsusilə son dövrlər dəbə düşübdür. İndi çox nadir ailələrdə iki uşaq doğulur. Əksər ailələr bir uşağa üstünlük verir, hətta uşaq olmamasına üstünlük verən ailələr də var. Ona görə də mən təklif edirəm ki, büdcənin sosial yönümlü tədbirlər hissəsində gənc ailələrə diqqət və qayğı artırılsın. Bu məsələ xalqın gələcəyi olduğu üçün əlavə vəsaitlər ayrılsın. Yəni xalqın artım məsələsi çox diqqət mərkəzində olan bir məsələdir. Nəhayət mən təmsil etdiyim Cəhri seçki dairəsi haqqında bir-iki söz demək istəyirəm. Cəhri qəsəbəsi Naxçıvan Muxtar Respublikasının ən böyük yaşayış məskənlərindən biridir. Fikrimcə, istər suvarılma, istərsə də demyə əkin sahələrinin genişliyinə görə Cəhri qəsəbəsi muxtar respublikada birinci yerdədir. 60 il bundan qabaq da SSRİ-nin deputatları Cəhriyə gələndə cəhrililər su problemini qaldırırdı, indi də bu problem var. Ancaq son illərki bu istiləşmə prosesi xüsusilə çox mənfi təsir göstəribdir. Cəhridə istər içməli su, istərsə də suvarma suyu daim problemdir. Xahiş edirəm bu məsələyə də büdcədə diqqət artırılsın.

Bir məsələni də diqqətinizə çatdırıb bununla da çıxışımı bitirmək istəyirəm. Naxçıvanda artıq bir sıra kənd və qəsəbə tipli yaşayış məskənlərində su-kanalizasiya sistemləri çəkilibdir. Misal üçün Nehrəm qəsəbəsində, Şıxmahmud və digər kəndlərdə. Nəzərdə tutulmuşdu ki, 5 il bundan qabaq Cəhridə su-kanalizasiya sistemləri çəkilsin. Amma təəssüf ki, indiyə kimi bu alınmayıbdır. Bunun da çox mənfi nəticələri var. Belə ki, bütün çirkab sularının hamısı küçələrdən keçən arxlara axıdılır. Əvvəllər arxlarda su axırdı, yuyub aparırdı, indi su qıtlığı olduğuna görə həmin arxlarda yığılan

çirkab suları iylənmə yaradır və xəstəlik mənbəyinə çevrilir. Xahiş edirəm bu məsələlərə diqqət yetirəsiniz.

Bir məsələni də deyim, Cəhri və Nehrəm 2020-ci ildə qəsəbə statusu alıbdır və müəyyən işlər görülübdür. Mən təklif edərdim ki, bu yaşayış məskənlərində çoxmərtəbəli binaların tikintisinə vəsait ayrılsın. Bununla qəsəbələrdə işsizlik probleminin həllinə də nail olunar. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Hacıfəxrəddin müəllim. Başqa çıxış etmək istəyən varmı? Buyurun İsa müəllim.

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Birinci məsələ büdcə gəlirlərinin mədaxil mənbələri üzrə dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların büdcə layihəsində göstərilməməsidir. Hamımıza bəlli məsələdir ki, dövlətin əmlakları var və həmin əmlaklar icarəyə verilibdir. Bu, Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcə layihəsinin 2.10-cu bəndində qeyd olunub. Bu, yalnız torpaqların icarəyə verilməsidir. Əmlakların icarəyə verilməsi ilə bağlı məlumatlar qeyd olunmayıbdır.

İkinci məsələ səhmlərində dövlətin payı olan müəssisələrdən alınan dividentlərin göstərilməməsidir. Bizə məlumdur ki, Naxçıvan Muxtar Respublikasında da dövlətə aid səhmdar cəmiyyətlər vardır və bununla bağlı ümumiyyətlə büdcə layihəsində heç bir qeyd aparılmayıbdır. Çox xahiş edirəm ki, bu iki məsələyə də aydınlıq gətirilsin. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim. Başqa çıxış etmək istəyən? Vüqar müəllim, buyurun.

**V.Abbasov.** Hörmətli Anar müəllim, hörmətli Səbuhi müəllim, hörmətli hökumət üzvləri və həmkarlar!

Deputat həmkarlarımın fikirlərini təsdiqləyirəm və dəstəkləyirəm. Eyni zamanda bildiyiniz kimi Sahibkarlar Konfederasiyasının sədri kimi artıq bir neçə sahibkarlarla görüş keçirmişik. Muxtar respublikada məşğulluq çox önəmlidir. Bu məşğulluğun da böyük hissəsi sahibkarlıqdan keçir. Artıq bir neçə görüşdən sonra bəzi hansı fəaliyyət növlərində dövlət tərəfindən bizə dəstək lazımdır, onları çıxarmışıq. İlk növbədə, Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların Naxçıvan Muxtar Respublikası ərazisində istehlak olunan hissəsinin vergi və gömrük rüsumlarından tam azad olunmasıdır. Həm idxal zamanı, həm ƏDV, həm də satış zamanı. Bunu iqtisadçılar, maliyyəçilər daha aydın başa düşər. Digər məsələ Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən müəssisələrin ölkənin digər regionlarına daşınan məhsulların nəqliyyatının subsidiyalaşdırılmasıdır. Yəni bu gün Gəncədən Bakı şəhərinə hər hansı bir nəqliyyat vasitəsi hansısa bir vəsait xərcləyirsə, biz o vəsaiti baza alıb, muxtar respublikadan Bakıya daşınan yüklərin arasındakı fərqi subsidiyalaşdırmaq olar. Onda muxtar respublikada fəaliyyət göstərən sahibkarlar digər regionlarda fəaliyyət göstərən sahibkarlarla eyni səviyyədə olar. Bundan başqa Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən müəssisələrin kəskin iqlim şəraitində fəaliyyət göstərdiyi üçün, yəni qışı çox soyuq, yayı çox isti olduğu üçün çox böyük enerji daşıyıcılarında fərqlər yaranır. Nəzərə alsaq ki, bu gün müəssisələrimizdə həm qışda, həm də yayda digər regionlardan, əsas da mərkəzdən fərqli olaraq, daha çox xərclərimiz çıxır. Təklifim enerji daşıyıcılarına müəyyən qədər güzəştlərin olmasıdır.

Bundan başqa Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən şirkətlər hər hansı bir investisiya edir. Məsələ bu investisiyaların qiymətləndirilməsidir. Bu qiymətləndirmə banklar özəl kommersiya təşkilatları olduğu üçün öz tərəfindən bizim investisiya etdiyimiz müəssisələri çox kiçik məbləğə qiymətləndirirlər. Yəni hər hansı bir müəssisəyə çəkilən 1 milyon manatlıq investisiyanı dəyər olaraq 200 min manat sayır. Hansı ki, o məbləği Bakı şəhərində və yaxud hər hansı bir yerdə qiymətləndirsə bunun dəyəri odur. Bunu nəzərə alaraq dövlət tərəfindən dəstək olsa çox yaxşı olar çünki banklar bunu etmirlər. Bundan başqa xüsusi iqtisadi rejimin yaranması haqqında xüsusi bir fərman layihəsi hazırlanıb. Biz bunu çox ciddi müzakirə etmişik, orda qeyd olunur ki, bu xüsusi iqtisadi rejimin yaranması 2024-cü ilin yanvar ayının 1-dən tətbiq olunsun. Düzdür bu, layihədir, hələ bu işlənilir, mən başa düşdüyüm qədəri ilə bu, bir müddət vaxt aparacaqdır. Bu, yanvar ayının 1-nə olmayacaq. Ona görə biz təklif edirik ki, muxtar respublikada fəaliyyət göstərən müəssisələrin, şirkətlərin, hansı ki, bunların hər biri müxtəlif coğrafi yerdə yerləşib, onların hamısı bu rezident statusunu qazansın. Yəni bu xüsusi iqtisadi rejimdə hansı ki, güzəştlər tətbiq olunacaq, onların hamısı hazırda fəaliyyət göstərən müəssisələrin hər birinə tətbiq olunsun. Burada söhbət həm gömrük, həm vergi, həm də sosial ödəmələrin güzəştlərindən gedir. Layihədə xüsusi iqtisadi rejim 2024-cü ilin əvvəlindən qeyd etdiyim kimi, tətbiqi nəzərdə tutulur. Həm bu sahədə uzun müddət olduğum üçün, həm də bütün muxtar respublika sahibkarlarının fikirlərini bildiyim üçün qeyd etmək istərdim ki, bu tədbirləri yubatmadan, bürokratik əngəllər olmadan həyata keçirməliyik. Bunun üçün mən 2023-2027-ci il Dövlət Proqramı ilə də tanış olmuşam və orada çox ciddi fikirlər var, amma bunlar hamısı vaxt aparır. Muxtar respublikada yaşayan insanlar da daha tez işlə təmin olunmaq istəyirlər. Ona görə təklif edirəm, sahibkarlığın inkişafı, məşğulluğun təmin olunması üçün bir an öncə dövlət özəl sektor ilə birlikdə, koordinasiyalı şəkildə iş aparsın. Bu fikirləri biz həyata keçirsək iş yerlərinin də sayı artar, sənayedə, kənd təsərrüfatında, inşaatda, xidmət sektorunda insanları işlə təmin etmək olar. Təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Başqa çıxış etmək istəyən varmı deputatlardan? Xahiş edəcəm deputat yoldaşlardan, kim çıxış etdi və ya etmədi öz fikirlərini, mülahizələrini bizim katibliyə təqdim edə bilər ki, stenoqrama düşsün. Vüqar müəllim, sizdən də xahiş edəcəyəm ki, bu təklifləri təqdim edin. İcazə versəniz bir ümumiləşdirmə aparım. Bütövlükdə, Naxçıvan Muxtar Respublikasının büdcəsi əvvəlki illərin büdcəsi ilə müqayisədə etiraf etməliyik ki, keyfiyyətli hazırlansa da sənəddə, onun məzmununda büdcə zərfinə daxil olan digər sənəddə bir sıra qüsurlar var. Deputat yoldaşlarım bunları həm komitələrin birgə iclasında maliyyə nazirinin müavini Həsən müəllimə çatdırmışdı, həm də burada bir daha bildirdi. Hesab edirəm ki, bu qüsurlar aradan qaldırıla bilən çatışmazlıqlardır. Ona görə biz bunların üzərində hökumətlə birlikdə işləməyə çalışmalıyıq. Əgər qruplaşdırsaq bu qüsurları 3 yerə bölə bilərik: birinci bu insional boşluqlardan yaranan məsələlərdir. Burada qeyd etmək lazımdır ki, Naxçıvan Muxtar Respublikasının büdcəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun hazırlanıb. Amma bilirik ki, hökumət üzvləri ilə də müzakirə zamanı həmin o büdcə qanununun məzmunu bizə kifayət qədər imkan vermir ki, Naxçıvan Muxtar Respublikasının büdcəsini ona uyğun tərtib edək. Hökumət üzvləri də, deputatlar da bunu çıxışlarında dedilər. Analogiya üzərindən bəzi prosesləri biz həyata keçiririk. Konkret olaraq o müddəalar üzərində işləmək lazımdır. Bu boşluqları aradan qaldırmaq üçün Ali Məclis hökumətlə birlikdə müzakirə edib, qanunvericilik təşəbbüsü hüququnu həyata keçirmək qaydasında Milli Məclis qarşısında həmin Qanuna yenidən baxıb o müddəaları düzəltmək üçün iş aparmalıdır. Birinci bu insional boşluğu aradan qaldırmalıyıq. İkincisi müzakirə mədəniyyətinin bir az zəifliyidir. Muxtar respublikamızda zəif olan bu halı birlikdə çalışıb

düzətlməliyik. Çünki hər şey müzakirə edilərkən düz yola gedir. Büdcənin tərtibi zamanı həm komitədə, həm də burada büdcənin Ali Məclisə təqdim olunmaması qeyd olundu. Büdcə təqdim olunsa idi, Azərbaycan Respublikasının müvafiq orqanlarına göndərilərkən orada təklifləri qeyd edə bilərdik. Bilirsiniz ki, bu, həm də qanunverici, qanuni bir prosesdir. Çünki “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Qanunu tələb edir ki, qanun layihəsi hazırlanarkən onun maraqlı tərəflərinin müzakirəsi olsun. Onlarla məsləhətləşmə aparılsın. Gələcəkdə bu problemi də birlikdə aradan qaldıracağıq. Əsas məsələ büdcə proqnozlaşdırılmasında olan bu boşluqlardır, bunlar da həm deputat yoldaşlarımın çıxışlarında göründü, həm də konkret o iradlar kimi tutuldu. Bir çox hallarda proqnozlaşdırmanın elmi-metodoloji qanunvericilik tərəfi yox, səthi aparıldığı görsənir. Bu həm obyektiv, həm də subyektiv cəhətlərdən qaynaqlanıb. Çünki vaxt azlığını da nəzərə alırıq, misal üçün büdcənin əsaslandırma hissəsində artıq gömrük orqanlarının Naxçıvan Muxtar Respublikasına tabeçiliyi yoxdur. Gömrüyün inkişafı ilə bağlı başqa sahələr var ki, onlarla bağlı proqnozlaşma aparılmasını bu zərfdə görə bilərsiniz. Ali Məclisə daxil olan məlumata görə bir çox hallarda mərkəzi icra hakimiyyəti orqanlarının da büdcə prosesi zamanı məsləhətləşmələrdə zəif iştirak etdiyi məlum olmuşdur. Onların öz büdcəsinin proqnozlaşdırılmasında, smetalarının tutulmasında bir az problemlər olub. Bu problemləri də aradan qaldırmalıyıq. Büdcə sistemi haqqında qanunun 26-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının büdcəsi, dövlət büdcəsinin qarşılıqlı əlaqəsinin gəlir mənbələrinin, gəlirin dotasiya, subvensiya, büdcə sudaları şəklində bölüşdürülməsi vasitəsi ilə həyata keçirilir. Hökmən deyil ki, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi büdcədə artıq nəzərdə tutulan məqamları dəyişə bilməz. Hesab edirəm ki, dotasiyaya dəyə bilmərik. Başqa sahədə biz büdcəyə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində baxa bilərik. Düzəldə və təkliflərimizi həyata keçirə bilərik. Mənim deyəcəklərim hələki bu qədərdir. İclasın əvvəlində də qeyd etdim, hörmətli Səbuhi müəllimin iştirakı ilə, hökumət üzvlərinin məhdud tərkibdə olsa belə burada iştirakı var. İcazə verirsinizsə Səbuhi müəllim bəzi məqamlara aydınlıq gətirsin.

**S.Məmmədov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Sağ olun. Hörmətli Anar müəllim, hökumət üzvləri və deputatlar!

Bu gün muxtar respublikanın 2024-cü il büdcəsinin aktiv müzakirə olunması, məni, eyni zamanda hökuməti çox şad edir. Çünki hazırladığımız büdcə əminəm ki, çox şəffafdır. Muxtar respublikada bütün mərkəzi icra hakimiyyəti orqanlarının, dövlət qurumlarının rəyi nəzərə alınıb. Eyni zamanda bundan əvvəl komitələrin birgə iclasında da aktiv müzakirənin aparılması bu büdcənin tam aydınlaşmasına xidmət edəcəkdir. Həmçinin ictimaiyyət üçün geniş bir məlumat mənbəyidir. Deputatlarımızın, komitə sədrlərinin müəyyən fikirləri, təklifləri oldu, onların müəyyən hissəsini qısa cavablandırmaq istəyirəm. Müəyyən hissəsi də hökumət üzvləri tərəfindən aydınlaşdırıldıqdan sonra növbəti oxunuşlarda cavablandırılacaq.

Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli fikirlərində Şərur rayonunda su qıtlığı ilə bağlı məsələləri bildirdi. Bildiyiniz kimi bu sahədə ciddi problemlərimiz var. Bu istiqamətdə işlər aparılır. İstər dövlət proqramı vasitəsilə, istərsə də muxtar respublikada büdcə vəsaitlərindən bu sahələrə vəsait ayrılır. Şərur rayonunun su təminatı tutumu 150 milyon kubmetr olan Arpaçay su anbarı vasitəsilə aparılır. Arpaçay su anbarı eyni zamanda həm Kəngərli rayonunun bir hissəsinə xidmət edir, həm də Sədərək rayonuna oradan su verilir. Artıq bu il Sədərək rayonuna suyun verilməsini dayandırdıq. Çünki aparılan suyun kanal xətti çox yaxşı vəziyyətdə deyildi, su itkisi var idi. Onlar nasos stansiyaları vasitəsilə həyata keçirildi. Qalan su ilə yenə də Şərur rayonunda

sahələrin suvarılması təmin edildi. Şərur rayonunda 400 artezian və nasos stansiyası fəaliyyət göstərir. Böyük həcmdə elektrik enerjisinin ödənilməsi üçün vəsait xərclənir. Təkcə bu il muxtar respublikada əhalinin əsasən suvarma suyu ilə təmin olunması üçün 13 milyon manatlıq elektrik enerjisi xərclənib. Bundan əlavə, çatmayan 2 milyon manat vəsait üçün mərkəzi hökumətə müraciət edilib ki, nasos stansiyaları fəaliyyətini dayandırmasın. Təbii resurslarımız bu il az olduğundan iri həcmdə suvarma suyu ilə təminatda artezianlardan və nasos stansiyalarından istifadə edildi. Tutumu 100 milyon kubmetrə yaxın olan Heydər Əliyev su anbarında artıq bu gün 9 milyon kubmetr su yoxdur. Ondan da çox aşağı səviyyədədir. Hələ müəyyən çöküntüləri nəzərə almasaq 150 milyonluq Arpaçay su anbarında bu gün 36 milyon kubmetr su var. Amma nəzərə almaq lazımdır ki, Şərur rayonunun böyük bir hissəsində, rayon mərkəzi, ona yaxın kəndlərdə də su-kanalizasiya sistemləri çəkilib, həmin sistemlərə də suyun verilməsi o anbarlar vasitəsilə aparılır. Suvarma suyu ilə bərabər, əhalinin içməli suya olan tələbatını da ödəmək məcburiyyətindəyik. Eyni zamanda bu, Heydər Əliyev su anbarına, digər sututarlarımıza da aiddir ki, bu sahədə çox ciddi çətinliklər var. Lakin buna baxmayaraq dövlət proqramları vasitəsilə artıq yeni nasos stansiyalarının qurulması istiqamətində layihələrin hazırlanması üçün müvafiq tenderlər keçirilir. Dəyəri 100 milyon manat olan böyük həcmdə investisiya sayəsində həm Babək, həm də Kəngərli rayonlarının su təminatı məsələsi həll olunduqdan sonra Arpaçay su anbarından Şərur torpaqlarının suvarılması üçün də əlavə imkanlar yaranacaq.

İkinci sual yeni bağçaların tikintisi ilə bağlıdır. Bəli, bu sahədə problemlərimiz var. Şərur rayon mərkəzində bir bağça fəaliyyət göstərir. Amma bu sahədə investisiya qoymaqla bərabər, həm yeni bağçanın tikintisi, həm də bağçanın hər il maliyyələşdirilməsi üçün vəsait ayrılmasını nəzərdə tutmalıyıq. Mövcud bir kompleksi təmir etmək bizim üçün bəzən asan olur. Ona görə ki, onu yenidən qurub istifadəyə veririk, artıq xərclər üçün ikinci vəsait ayırmırıq. Bunu tənzimləmək üçün Təhsil Nazirliyində məktəbəqədər hazırlıq qruplarında kifayət qədər imkanlarımız var. Hətta bir kənd məktəbində iki-üç məktəbəqədər sinif qrupları formalaşdıra bilərik. Bu zaman nəzərdə tutulan icbari təhsili ala biləcəklər. Sadəcə bağçalarda ərzaq təminatı var və saat 6-ya kimi fəaliyyət göstərir. Başa düşürük ki, valideynə bunlar lazımdır. Amma gələcəkdə bu məsələlərə yenidən baxılması nəzərdə tutulur. Bəlkə də özəl investisiya hesabına bağçaların tikilməsi məsələsinə baxıla bilər. Hər bir halda bunu nəzarətdə saxlayacağıq. Ancaq məktəbəqədər azyaşlı uşaqların təhsil alması üçün hər məktəbdə sinif açmaq imkanlarımız mövcuddur.

İsmayıl müəllim üçüncü sualında məhkəmə qərarlarının icrası ilə əlaqədar muxtar respublikada vəsaitin nəzərdə tutulmamasını səsləndirdi. Ümumiyyətlə, təcrübədə muxtar respublikada son 30 ildə bu vəsaitlər nəzərdə tutulmayıb. Amma o demek deyil ki, məhkəmə qərarlarının icrasına vəsaitin ödənilməsində çətinliyimiz var. Hər zaman onları ödəmişik. Məsələn, bu il ərzində də ev söküntüsü ilə əlaqədar məhkəmə qərarları oldu. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin ehtiyat fondu var, belə hal olanda məhkəmənin müvafiq qərarı qanuni qüvvəyə mindikdən sonra artıq bizə müraciət olunur və həmin vəsaitlərin ödənilməsi üçün muxtar respublikanın ehtiyat fondundan vəsait ayırırıq. Dediyim kimi, bu il bu hallar oldu, vəsaitlərin ayrılmasını təmin etdik. Növbəti büdcə ilində də bu sahədə problemimiz olmayacaq. Müəyyən resurslarımız mövcuddur. Amma sonrakı dövrlərdə belə hallar kütləvi olarsa, əlbəttə, bunun büdcəyə daxil olmasına etiraz etməyəcəyik. Bəzən vəsait nəzərdə tutulur, amma xərclənməmiş qalır. Bu da bizə artıq dotasiya, artıq büdcə göstəriciləri deməkdir.

Sosial siyasət komitəsinin sədri Yeganə xanımın fikirlərini də qeydə aldıq, araşdırılıb ikinci oxunuşda da yenə hökumət üzvləri tərəfindən cavablandırılacaqdır.

Humanitar siyasət komitəsinin sədri Elman müəllimin fikirləri ilə razıyam. Bunlar müəyyən bir prosedur ilə aparılmalı, çərçivəsi müəyyən olunmalıdır. Biz bunu indiyə kimi “Büdcə sistemi

haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun aparmışıq, Anar müəllimlə də bu barədə müzakirələrimiz olub. Biz də təkliflərimizi hazırlayıb növbəti dövrdə Ali Məclisə təqdim edəcəyik. Seçkilərin keçirilməsi ilə əlaqədar muxtar respublikada vəsaitin ayrılmaması ilə bağlı Elman müəllim bir fikri də qeyd etdi. Növbədənkənar seçkilərin keçirilməsi ölkə Prezidentinin sərəncamı ilə müəyyən olunur. 2024-cü il büdcəsində bunun üçün təxminən 110 milyon manat vəsait nəzərdə tutulmuşdur. Seçkilər ümumi keçiriləndə həmin vəsaitdən muxtar respublikaya və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının tabeliyində fəaliyyət göstərən dairələrə tam vəsaitlər ayrılır. Keçmişdə Naxçıvan Muxtar Respublikasına seçkilərlə əlaqədar vəsaitlərin ayrılması təcrübəsi də var. Dövlət büdcəsində gözlənilməz xərclərin maliyyələşdirilməsi üçün vəsait ayrılıb. Belə ki, ötən dövrdə də bizim büdcədə nəzərdə tutulmasa belə smetamızı müəyyən etdikdən sonra Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə müraciət edirdik. Bundan sonra da muxtar respublikada seçkilər keçirilərsə, həmin vəsaitlərin ayrılması üçün heç bir problem yaşamayacağıq. Halbuki müəyyən ehtiyat resursumuz olsa belə həmişə mərkəzdən maliyyələşdirilmə aparılması təmin olunubdur.

Sədərək rayonundan olan deputat Vüsalə xanım rayon ərazisində olan kəndlərdə işıqlandırmanın zəif olması ilə əlaqədar məsələ qaldırdı. Ümumilikdə, muxtar respublikada rayon mərkəzlərində, şəhərlərimizdə, qismən qəsəbələrdə işıqlandırma prosesləri aparılır. Yəni bu sahədə də işlər nəzarətə götürüləcək və həyata keçirilməsi üçün növbəti ildə maliyyə mənbələri müəyyənləşdiriləcək. Çox böyük xərclərə də ehtiyac duyulmayacaq.

Şərur rayonundan olan deputatımız Əmir Babayev təhsilə ayrılan vəsaitin azaldılması ilə bağlı fikirlər səsləndirdi və bunun səbəblərini soruşur. Nəzərə çatdırmaq istəyirəm ki, təhsilə ayırdığımız vəsait ötən il 173 milyon manat, bu il isə 160 milyon manat görünür. Amma əslində elə deyil. Təhsilə ayırdığımız vəsait azalmayıb, bu, bəzi xərclərin təhsildən çıxılması ilə əlaqədardır. Azalmanın səbəblərindən biri Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Texniki Kollecin 2023-cü ildə Azərbaycan Respublikası Baş nazirinin müvafiq sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilməsidir. Buna görə də artıq onun maliyyələşdirilməsi yanvarın 1-dən mərkəzləşdirilmiş qaydada, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində Tibb Kolleci fəaliyyət göstərirdi. Tibb Kolleci Səhiyyə Nazirliyinin tabeliyində olsa belə onun xərcləri təhsil bölməsində nəzərdə tutulmuşdu. O da eynilə Naxçıvan Dövlət Universitetinə verilib. Universitet onun maliyyələşdirilməsini hayata keçirdiyi üçün Naxçıvan Muxtar Respublikasının büdcəsindən çıxarılıb. Nəzərinizə çatdırım ki, artıq Naxçıvan Musiqi Kolleci də Naxçıvan Dövlət Universitetinin tabeliyinə verilib. Onun xərci növbəti il 3 milyon 500 min manatdır. 2024-cü ildə muxtar respublika büdcəsində qalsa belə 2025-ci il üçün artıq mərkəzi hökumətlə razılaşdırmışıq, o da bizim təhsil xərclərimizdən çıxarılacaqdır. Xərclər ona görə bu formada azalmış görünür. Amma nəzərə alın ki, Naxçıvan Muxtar Respublikasının büdcəsinin ümumi xərclərinin 31,1 faizini təkcə təhsil xərcləri təşkil edir. Ötən illərdə bu rəqəm 22-20 faiz olub. Düzdür, əvvəl bağçalar icra hakimiyyətləri vasitəsilə maliyyələşdirilirdi, onların Təhsil Nazirliyinin tabeliyinə verilməsi də xərcləri artırdı. Lakin, ümumilikdə, xərclərin 31 faizi tahsilə nəzərdə tutulub. Büdcənin hazırlanması zamanı çatışmazlıqların aradan qaldırılması və əlavə resursların müəyyənləşdirilməsi üçün Təhsil Nazirliyinin təklifləri alınıb. Hər hansı bir vəsaitin əsassız olaraq kəsilməsi, nazirliyin təkliflərinin nəzərə alınmaması kimi hal olmayıb. Həmçinin qeyd edim ki, Kimya-biologiya təmayüllü liseyin illik xərci 3 milyon manatdan çox idi. Artıq həmin lisey də Naxçıvan Dövlət Universitetinə verilib. Təhsil xərclərində azalmış 10 milyon manat bunun hesabınadır. Əmir Babayev həm də fövqəladə vəziyyət üçün muxtar respublikada nəzərdə tutulan vəsaitlərdən danışdı. Muxtar respublikada fövqəladə halların aradan qaldırılması üçün 1 milyon manat vəsait ayrılıb, bu kifayət edir. Bu il fövqəladə hallar üçün muxtar respublikada nəzərdə tutulan 1 milyon manat vəsait ilin sonu olmasına baxmayaraq zərurət yaranmadığından xərclənməyib. Cari ildə Naxçıvan şəhərində bir binanın dam örtüyü yandı, həmin dövrdə lazım olan vəsaitin muxtar respublikanın ehtiyat fondundan

maliyyələşdirilməsi hayata keçirildi. Bundan sonra da belə hallar yaranarsa, muxtar respublikanın ehtiyat fondlarından, yaranmış digər qənaətlər hesabına tədbirlər görüləcəkdir.

Deputat Ehtimad müəllim çıxışında su təsərrüfatı sahəsində muxtar respublikada xərclərin azaldılması ilə əlaqədar narahatlığını bildirdi. Nəzərinizə çatdırım ki, muxtar respublikada su təsərrüfatı ilə bağlı xərclər azalmayıb, ötən il bu sahəyə 29 milyon manat vəsait nəzərdə tutulmuşdursa, 2024-cü ildə bu vəsait 31 milyon manata çatdırılıb. Azərbaycanda Dövlət Su Ehtiyatları Agentliyi yaradılıb, muxtar respublikada da analoji işlər həyata keçiriləcəkdir. Müəyyən təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim olunub. Yeni yaradılan agentliyin maliyyə resursu nəzərdə tutulan 31 milyon manatdır. Yeni qurum yaradılanda həmin Sərəncamla da vəsaitin növbəti istifadəçisi Dövlət Su Ehtiyatları Agentliyi olacaq. Həmçinin mərkəzdən əlavə vəsaitin ayrılması da ona görə idi ki, Azərbaycanda içməli su ilə suvarma suyunu həyata keçirən mərkəzi orqanlar- Azərsu və Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tamamilə bir-birindən ayrıdır. Muxtar respublikada içməli və suvarma suyunu təmin edən yeganə bir qurum vardır və vəsait bir mərkəzə yığılırdı. Təkcə Naxçıvan şəhərində içməli su təminatını Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində olan Su-Kanalizasiya İdarəsi həyata keçirir. Həmin qurum isə təsərrüfathesablı olduğundan büdcədən vəsait ayrılması nəzərdə tutulmurdu. Yeni agentlik yarananda da içməli suyun təminatı o qurum tərəfindən həyata keçiriləcək**.** Həmçinin Naxçıvan şəhərində olan Su-Kanalizasiya İdarəsi də agentliyin tabeliyinə veriləcək. Ehtimad müəllimi əmin edirəm ki, meliorasiya sahəsində vəsait qıtlığı yaranmayacaq. Bundan əlavə, cənab Prezidentin təsdiq etdiyi dövlət proqramında nəzərdə tutulan işlərin təxmini 30 faizi kənd təsərrüfatı və meliorasiya sahəsinə aiddir. Bu sahə muxtar respublikada vacib, ənənəvi sahə olduğundan ciddi nəzarətdə saxlanılır.

Deputat İsa müəllim çıxışında qeyd etdi ki, yanacağın daşınması üçün muxtar respublika büdcəsində 10 milyon manat vəsait nəzərdə tutulub, bu, bizim üçün əlavə yükdür. Həmin fikirlə razılaşıram. Amma hörmətli deputatların nəzərinə çatdırmaq istəyirəm ki, 2021-ci ilə qədər muxtar respublikada yanacağın daşınması üçün xərclər Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti tərəfindən ödənilirdi. Bəzi yanacaq növlərinin qiymətini Azərbaycan Respublikasının Tarif Şurası müəyyən edir. O məhsulu yerində həmin qiymətə satmalıyıq. Lakin bu gün muxtar respublikaya daşınan yanacaq Tarif Şurası tərəfindən müəyyən olunmuş Aİ-92, dizel yanacağıdır ki, bundan muxtar respublikaya 125 min ton gətirməyi nəzərdə tuturuq. Bu yanacağın daşınmasının hər tonu 11 qəpikdir. Əgər daşınma xərcləri onun üzərinə əlavə olunsa, o zaman muxtar respublikada dizel yanacağını 91 qəpiyə, benzini də 1 manat 11 qəpiyə satmalıyıq. Bu səbəbdən artıq 2 ildir ki, muxtar respublikanın büdcəsində vəsait nəzərdə tutulub. Bu il artıq mərkəzi hökumətə bu 10 milyon manatın bizim büdcədən çıxarılması barədə təkliflərimizi vermişik. Növbəti aylarda yəqin ki, muxtar respublikada yanacağın satışı, dövriyyəsi və idarə olunması Azərbaycan hökumətinin müvafiq qərarı ilə mərkəzləşəcək və daha sonra daşınma xərcləri də mərkəzdən həyata keçiriləcəkdir. 10 milyon manat vəsait büdcədə nəzərdə tutulsa da, növbəti il həmin vəsaitin çox az hissəsindən istifadə ediləcək. Bu, büdcədə qənaət kimi qalacaq. İlin birinci yarısında dövlət büdcəsinin dürüstləşməsi hayata keçiriləndə təkliflərimizi verəcəyik ki, həmin vəsait muxtar respublika büdcəsindən çıxarılsın və əminəm ki, bunu da hayata keçirəcəyik.

Şərur rayonundan olan deputat Nüsrət müəllim səhiyyəyə ayrılan vəsaitin azlığı ilə əlaqədar fikirlərini bildirdi. Bildirmək istəyirəm ki, bir çox səhiyyə xidmətləri artıq mərkəzləşmiş qaydada İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi vasitasi ilə həyata keçirilir. Səhiyyə sahəsinə ayrılan pulun həcmi kifayət qədər çox, 4-5 dəfə artırılıbdır. Azərbaycan büdcəsindən subvensiya şəklində ayrılmış 70 milyon manatdan çox vəsait artıq hər ay muxtar respublikaya daxil olur. Biz büdcədə səhiyyə sahəsində ancaq proqramlar, onkoloji, psixoloji və bir neçə istiqaməti saxlamışıq. Digərləri icbari tibbi sığorta vasitasilə həyata keçirilir. Bu isə əməkhaqqıdan tutulmalar və digər mənbələr hesabına həyata keçirilir. Bu sahədə heç bir çatışmazlığımız olmayacaq.

İqtisadi siyasət komitəsinin sədri İsa İsayev büdcə gəlirlərində dövlət əmlakının icarəyə verilməsindən gələn gəlirlərin nəzərdə tutulmaması barədə sualını bildirdi. Bu sahədən olan iradlar düzgündür, bu, komitə iclasında da müzakirə olunub. Nəzərə alsaq ki, qeyd olunan sahə ilə bağlı muxtar respublikada ümumi olaraq bir vəsait nəzərdə tutulub. Builki rəqəmlərə uyğun növbəti il üçün proqnoz qoyulub. Artıq ikinci oxunuşa kimi dəyişiklik etdikdən sonra təqdim edəcəyik. Dövlət əmlakı, torpaq və dövlət əmlakının icarəsindən gələn vəsaiti də ayırıb təqdim edəcəyik ki, təsdiq olunanda artıq dövlət əmlakından daxilolmalar o formada həyata keçirilsin.

Deputat Vüqar Abbasovun qeyd etdiyi fikirlər muxtar respublikada sahibkarlığın dəstəklənməsi, investisiya mühiti üçün ciddi məsələlərdir. Bu fikirlərin hər biri ilə razıyam. Amma bildirmək istəyirəm ki, bunlar dövlət proqramında nəzərdə tutulub,  müzakirələr aparılır. Növbəti ildə bu barədə Azərbaycan Respublikasında müvafiq qərarlar verildikdən sonra lazımi işlər həyata keçiriləcəkdir.

Deputat Fəxrəddin müəllim çıxışında dövlət proqramının həyata keçirilməsi üçün nə qədər vəsaitin nəzərdə tutulduğunu soruşdu. Deputatların nəzərinə çatdırmaq istəyirəm ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın icrası üçün 2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 44,6 milyon manat vəsait ayrılıb. Artıq onun müəyyən bir hissəsi xərclənib. Növbəti il üçün də bu sahə üzrə vəsait dövlət büdcəsində nəzərdə tutulub. Ötən həftə Milli Məclisdə aparılan büdcə müzakirələrində iştirak etdim, cənab Prezidentin müvafiq sərəncamı ilə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üçün 249 milyon manat vəsait nəzərdə tutulub. Artıq bu, təsdiqlənib, həmin 249 milyon manat vəsaitin növbəti ildə yenidən bölgüsü aparılacaq, muxtar respublikada layihələri həyata keçirmək üçün əsas icraçı qurumlar arasında bölüşdürüləcək. Proqramın həyata keçirilməsi üçün heç bir problem olmayacaq, bütün maliyyə mənbələri üçün ilkin böyük vəsait ayrılıb, sadəcə işi görən qurum müəyyənləşdikdən sonra vəsait birbaşa həmin quruma ayrılacaq. Fəxrəddin müəllim çıxışında xarici ezamiyyələrlə əlaqədar vəsaitlərin ayrılmasını da qeyd etdi. Bəli, bu vacib sahədir, daim onlar beynəlxalq qurumlarla, müvafiq tərəfdaş olduğu təşkilatlarla müzakirələr keçirir, amma nəzərinizə çatdırmaq istəyirəm ki, artıq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və tabeliyində olan institutların maliyyələşdirilməsi artıq mərkəzi hökumətə verilib. Bu barədə təklif və tələblər Azərbaycan Milli Elmlər Akademiyasına və ya Elm və Təhsil Nazirliyinə bildirilməlidir ki, vəsait ayrılması təmin olunsun.

Babək rayonunda, o cümlədən Cəhri qəsəbəsində də içməli su problemi ilə əlaqədar Fəxrəddin müəllim fikirlərini bildirdi. Muxtar respublikada bu proses 10 ildir həyata keçirilir. Kəngərli rayonu istisna olmaqla, artıq rayon mərkəzlərində bu işlər başa çatdırılıb. Babək rayonunun mərkəzində və ətraf kəndlərində, hazırda Nehrəm qəsəbəsində həyata keçirilən işlər başa çatdırıldıqdan sonra Cəhri qəsəbəsində də gələcəkdə su-kanalizasiya sisteminin bərpası üçün məsələlər müzakirə oluna bilər. Bu məsələ dövlət proqramında da nəzərdə tutulub, muxtar respublikanın bütün rayonlarında su-kanalizasiya sisteminin tətbiqi, həmçinin Cəhri qəsəbəsində mütləq nəzərə alınacaqdır.

Muxtar respublikanın büdcəsində 5 milyon manat artırılan yol vergisinin necə toplanacağı ilə bağlı deputatlar fikirlər səsləndirdi. Diqqətinizə çatdırmaq istəyirəm ki, yol vergisi muxtar respublikaya daxil olan xarici yük nəqliyyat vasitələri üçündür. Onlar muxtar respublikaya mütəmadi giriş edirlər, tranzit gedişlər də olur. Onların hər biri üçün 100 dollar məbləğində vəsait nəzərdə tutulub. Bundan əlavə, muxtar respublikada hər qaldığı gün üçün 80 dollar nəzərdə tutulub. Təhlükəli yüklər daşıyırsa, əlavə vəsaitlər nəzərdə tutulub. Vəsaiti artırmağımıza səbəb proqnozu az nəzərdə tutmağımıza baxmayaraq vəsaitin qoyulan məbləğə yaxınlaşmasıdır. Ona görə də bunu növbəti il üçün proqnoza saldıq. Baxmayaraq ki, muxtar respublikada böyük həcmdə gömrük gəlirləri var, lakin, bu, mərkəzi büdcəyə köçürülür, ancaq həmin nəqliyyat vasitələri muxtar respublikanın yerli və digər yollarından istifadə edirlər. O yolların saxlanılması üçün vəsaitlər xərclənir. Yolları istismar edirlərsə vəsait də büdcəyə gəlməli və həmin vəsait də yolların

saxlanılmasına xərclənməlidir. Vəsaitin yığılmaması kimi problem yoxdur. Çünki 2023-cü ildə 2024-cü il üçün müəyyənləşdirdiyimiz proqnoza yaxınlaşmışıq. Mənim fikirlərim bu qədər, qısaca verilən sualları cavablandırmaq istədim. Bütün sahələr üzrə görülən işlərə nəzərdə tutduğumuz maliyyə mənbələri üzrə kifayət qədər planlı əsaslandırmalar var. Hökumət növbəti oxunuşda da geniş tərkibdə təmsil olunacaq. Sizi əmin edirəm ki, qaldırdığınız bütün fikir və təkliflər nəzərə alınacaq. Burada ayrılan vəsaitlər ümumi vəsait şəklində ayrılıbdır. Büdcə qanunu qəbul olunduqdan sonra Ali Məclis sədrinin fərmanı olacaq. Fərman layihəsi hələlik təqdim edilməyib. Bundan sonra vəsaitlərin bölgüsü olacaq. Deputatların səsləndirdiyi fikirlərdə daha vacib olan məsələlərin həlli üçün ümumi vəsaitimiz var. Tikinti sahəsinə 22 milyon manat, yol təsərrüfatına 16 milyon manat vəsait ayrılıb. Sizin fikirləri nəzərə alıb onları bölmək üçün imkanlarımız var. Artıq müvafiq fərmandan sonra növbəti ilin yanvar-fevral ayına kimi həmin vəsaitlərin bölgüsünü həyata keçirəcəyik. Bəli, hər hansı bir kənddə əhalinin təklifləri, fikirləri sizin tərəfinizdən bizə çatdırılır, biz də bunları nəzərə alacağıq. Sağ olun, fikirlərim bu qədər, əlavə suallar olarsa cavablandırmağa hazırıq.

**Sədrlik edən.** Çox sağ olun, Səbuhi müəllim, ətraflı məlumata görə, ünvanlanan sualları cavablandırdığınız üçün deputat həmkarlarım adından sizə təşəkkürümü bildirirəm. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələri haqqında Qanunun 6-cı maddəsinə əsasən Ali Məclisin komitəsi komitəyə təqdim olunmuş qanun layihəsinə dair rəy qəbul edir. Buna müvafiq olaraq İqtisadi siyasət komitəsinin sədri İsa İsayev komitənin rəyini bildirmək üçün dəvət olunur.

**İ.İsayev,** *Ali Məclisin İqtisadi siyasət komitəsinin sədri.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinə dair rəyi:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinə daxil olmuş “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi komitə üzvlərinə paylanılmışdır. Layihəyə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 16-cı maddəsində nəzərdə tutulmuş qaydada baxılmışdır. Qanun layihəsinə əsasən Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsinin gəlirləri 173 milyon 105 min manat, xərcləri 516 milyon 365 min manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 343 milyon 260 min manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 110 milyon 474 min manat, yerli gəlirləri 62 milyon 631 min manat, mərkəzləşdirilmiş xərcləri 464 milyon 440 min manat, yerli xərcləri 51 milyon 925 min manat) məbləğində nəzərdə tutulmuşdur.

Komitənin 4 dekabr 2023-cü il tarixli iclasında Ali Məclisin digər komitə sədrlərinin və üzvlərinin, həmçinin hökumət nümayəndələrinin iştirakı ilə Qanun layihəsi müzakirə olunmuş, təkliflər və iradlar irəli sürülmüşdür. Qaldırılan məsələlər iclasda müzakirə edilərək mümkün tənzimləmələr nəzərə alınmış, bəzi təklif və iradların isə növbəti büdcə ili çərçivəsində müvafiq hüquqi tənzimləmələrlə həll edilməsi imkanlarının olduğu müəyyən edilmişdir. Ümumilikdə isə, Qanun layihəsi “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının 2 iyul 2002-ci il tarixli Qanununun tələblərinə uyğun hazırlanmışdır.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq Ali Məclisin İqtisadi siyasət komitəsi qeyd edir ki, “Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında” Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi səsləndirilən təkliflər və iradlar nəzərə alınmaqla qəbul edilə bilər.

**Sədrlik edən.** Çox sağ olun, İsa müəllim. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 19.4.1-ci maddəsinə əsasən qanun layihəsi, birinci oxunuşda baxılması nəticəsində Ali Məclisin protokol qaydasında qəbul edilən qərarı ilə layihə birinci oxunuşda qəbul edilir, söylənilmiş təklif və iradlar nəzərə alınmaqla onun üzərində iş davam etdirilir.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikasının 2024-cü il büdcəsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsinin birinci oxunuşda qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 12.52 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin yeni üzvlərinin seçilməsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41.2-ci maddəsinə görə Ali Məclisin rəhbərliyi Ali Məclisin komitələrində təmsil olunmur və Ali Məclisin başqa hər bir deputatı komitələrdən birinin üzvü olmalıdır. Ali Məclisin deputatı Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 5 oktyabr 2023-cü il tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini vəzifəsindən azad olunmuşdur və o, Ali Məclisin heç bir komitəsində təmsil olunmadığından onun İqtisadi siyasət komitəsinə üzv seçilməsi təklif edilir. Eyni zamanda Daxili Nizamnamə ilə bir deputatın ən çoxu iki komitənin üzvü olma imkanı nəzərdə tutulduğundan Hüquq siyasəti komitəsinin üzvü Hüseyn Bağırsoylunun müraciəti əsasında onun İqtisadi siyasət komitəsinə üzv seçilməsi təklif olunur.

Hörmətli deputatlar!

Bağırsoylu Hüseyn Qədirulla oğlu və Zeynalov Azər Yadulla oğlunun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin üzvləri seçilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərar layihəsi hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasının konstitusiyasının 22-ci maddəsini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41.2 maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları Ali Məclisin İqtisadi siyasət komitəsinin üzvü seçilsinlər:

Bağırsoylu Hüseyn Qədirulla oğlu,

Zeynalov Azər Yadulla oğlu

Kim bu Qərarın oxunan qaydada qəbul edilməsinə razıdırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, Qərar qəbul edildi.

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikasının  iqtisadiyyat nazirinin vəzifəsindən azad olunması məsələsidir.

Bunu son olaraq biz iclasımızın əvvəlində gündəliyə əlavə etdik. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 36-cı maddəsinin II hissəsinə  əsasən Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibinin təsdiqi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlərdən biri olub Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndi ilə müəyyən edilmişdir. Eyni zamanda "Naxçıvan Muxtar Respublikasi Ali Məclisinin Daxili Nizamnaməsi"nin 54-cü maddəsində Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru müəyyən edilmişdir. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibinin təsdiqi proseduru həm vəzifəyə təyin etməni, həm də vəzifədən azad etməni nəzərdə tutur.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin 2023-cü il 8 dekabr tarixli təqdimatı Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə daxil olmuşdur. İcazənizlə deputat həmkarlarımı həmin təqdimatla tanış edim:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 36-cı maddəsinin ikinci hissəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Əliyev Tapdıq Vaqif oğlunun öz ərizəsi asasında tutuğu vəzifədən azad olunması barədə müvafiq qərar qəbul olunması xahiş olunur.

Baş nazir Səbuhi Məmmədov

Hörmətli deputatlar!

Əliyev Tapdıq Vaqif oğlunun Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərar layihəsi hazırlanmışdır. Qərarı sizin diqqətinizə çatdırıram:

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının 25-ci maddəsinin birinci hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Tapdıq Vaqif oğlu Əliyev Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri vəzifəsindən azad edilsin.

Deputat həmkarlarımdan kim qərarın oxunan qaydada qəbul olunmasına razıdırsa, xahiş edirəm münasibətini bildirsin.

| **Səsvermənin nəticələri** | (saat 12.58 dəq.) |
|---|---|
| Lehinə | 35 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 35 |

Nəticə: Qəbul edildi

Beləliklə, Qərar qəbul edildi.

Gündəlikdə duran sonuncu məsələmiz cari məsələlərdir.

Hökumətin də burada iştirakını nəzərə alaraq cari məsələlərin müzakirəsinə başlayırıq. İsmayıl müəllim, buyurun.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Anar müəllim, seçicilərlə keçirilən görüşlərdə qaldırılan məsələlərdən biri də şəhid adlarının əbədiləşdirilməsi ilə bağlıdır. Şəhid yaxınları bildirirlər ki, 44 günlük Vətən müharibəsindən 3 ildən çox vaxt keçməsinə baxmayaraq bir çox hallarda şəhidlərin adları küçələrə, məktəblərə, meydanlara və s. verilməyibdir. Mən də bu fürsətdən istifadə edib aidiyyəti orqanlardan bu prosesin sürətləndirilməsinə köməklik edilməsini xahiş edirəm. Onların çoxu şəhid adının əbədiləşdirilməsi ilə bağlı tədbirlər haqqında Nazirlər Kabinetinin müvafiq qərarında nəzərdə tutulan tələblərə uyğundurlar. Ona görə də xahiş edirəm ki, şəhid ailələrinin müraciəti nəzərə alınaraq bu prosesi biraz sürətləndirək.

**Sədrlik edən.** Çox sağ olun, İsmayıl müəllim. Başqa çıxış etmək istəyən varmı? Yeganə xanım, buyurun.

**Y.Məmmədova,** *Ali Məclisin Sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun, Anar müəllim. Cari məsələlərlə bağlı fikirlərim çoxdur, sadəcə çalışacağam ki, qısa edim. Hörmətli Baş nazir Səbuhi müəllim dedi ki, məktəbəqədər hazırlıq qruplarında kifayət qədər sinif açmaq imkanımız var. Düşünsək ki, məktəbəqədər qruplarına beşyaşlı uşaqlar qəbul olunur. Bəs beş yaşından kiçik uşaqların işləyən valideynləri nə etməlidir? Ən azından deputatı olduğum doqquz kəndə bir uşaq bağçası tikmək olar. Bağçanın fəaliyyət göstərməsi uşaqların formalaşmasında çox böyük rol oynayacağı üçün Səbuhi müəllimdən bunu nəzərə almasını xahiş edirəm. Növbəti sualım yerlərdə tədarük məntəqələrinin olmaması ilə bağlıdır. Kəndli istehsal etdiyi məhsulu qiymətlər və məhsul bolluğu səbəbindən sata bilmir və məhsul ziyan olur. Əgər tədarük məntəqəsi olarsa, kəndli bu cür hallarla qarşılaşmaz, belə ki, məhsulunun alıcısı olduğunu biləcək.

Digər bir məsələ ondan ibarətdir ki, bu gün də kəndlərimizdə olan marşrut xətlərində aztutumlu köhnə avtobuslar fəaliyyət göstərir. Həmçinin marşrutların az olması kənddən şəhərə və əks istiqamətdə hərəkət edən sakinlərin haqlı narazılığına səbəb olur. Xahiş edirəm ki, bunları nəzərə alıb, marşrut xətləri artırılsın, iritutumlu yeni avtobuslar verilsin.

Qeyd edəcəyim bir hal da yerlərdə suvarma suyunun verilmə qrafikinə əməl olunmamasıdır. Xahiş edirəm ki, qrafikə riayət olunmasına nəzarət edilsin.

Başqa bir hal isə təsərrüfathesablı müəssisələrdə çalışan şəxslərin əməkhaqlarının gecikdirilməsi ilə bağlıdır. Bu vətəndaşların kredit borclarının ödəyə bilməməsinə və əlavə faizlərin gəlməsinə şərait yaradır. Bu məsələ də diqqətdə saxlanılsın. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Yeganə xanım. Sizi burada hökumət üzvləri eşitdilər. İclasda meliorasiya sahəsi ilə bağlı problemlər qaldırıldı. Aid şəxslər tərəfindən suallar cavablandırılacaq. Mən də deputat kimi cari məsələlərə öz münasibətimi bildirmək istəyirəm. Həqiqətən də sizin qaldırdığınız və Səbuhi müəllimin də cavablandırdığı bağça məsələsi müraciət edən vətəndaşlar tərəfindən tez-tez gündəmə gətirilir. Bunun optimal həll yolu tapılmalıdır. Səbuhi müəllimin dediyi həll yolu ölkəmizin digər regionlarında təcrübədə istifadə olunur. Ən azından iri yaşayış məntəqələrində bağçaların tikilməsinə nail olmalıyıq ki, bu həm də məşğulluq probleminin aradan qaldırılmasına köməklikdir. Əlavə kimin sözü varsa buyursun? Əmir müəllim, buyurun.

**Ə.Babayev.** Bir neçə il bundan əvvəl Şərur şəhəri və onun ətraf kəndlərində su-kanalizasiya sisteminin yenilənməsi işlərinə başlanıldı. İşlərin Şərur şəhərində tamamlanmasına baxmayaraq ətraf kəndlərdə bu günə qədər bu istiqamətdə iş görülməyib. İşlərin davam etdirilməməsinin səbəbini öyrənmək istərdim.

Eləcə də deputatı olduğum ərazilərdə kənd camaatı, əkinçiliklə məşğuldurlar. Onlar ilin müəyyən vaxtında Türkiyədən, İrandan toxum və gübrə gətirməyə çalışırlar. Gömrükdə onlar üçün müəyyən problemlər yaranır, gətirə bilmirlər. Vətəndaşlarla görüşdə bunun həll olunması üçün müəyyən tədbirlərin görülməsini xahiş edirlər.

Digər bir məsələ odur ki, Muğanlı kəndində məktəb binası yenidənqurmadan sonra məktəbin balansında olan stadion yararsız hala salınıb. Həmçinin stadion məktəbin balansından çıxarılaraq bələdiyyənin balansına verilib. Kəndin sakinləri və məktəb kollektivi bu məsələnin həll olunmasını istəyir. Eləcə də bildirmək istəyirəm ki, bəzi idman avadanlıqları, xüsusilə də tennis avadanlıqları məktəblərin bir çoxunda istifadə edilmir, anbarlarda saxlanılır. Həmin avadanlıqlardan Muğanlı məktəbinə də verilməsini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Başqa çıxış etmək istəyən? Buyurun, Nüsrət müəllim.

**N.Həsənov.** Dəmirçi kəndində seçicilər arasında olarkən onların dediyi bəzi fikirləri diqqətə çatdırmaq istəyirəm. Belə ki, Əhmədov Etibar Rzaqulu oğlu I Qarabağ müharibəsi şəhididir. Qardaşı tərəfindən belə bir fikir səsləndirilib ki, şəhidin ailəsinə o zaman 11 min manat birdəfəlik ödəmə müəyyənləşdirilib, amma bu vaxta qədər ödənilməyib. Xahiş edirəm məsələ aidiyyəti şəxslər tərəfindən araşdırılsın. Həmçinin Şəhid İsmayılov Şükür Fərəculla oğlunun həyat yoldaşı mənzil şəraitinin yaxşılaşdırılmasını və ailəyə avtomobil verilməsini istəyir.

Digər bir məsələ içməli və suvarma suyu ilə bağlıdır ki, əslində deputat həmkarlarım bu fikirləri məndən əvvəl də səsləndirdi. Bu hal muxtar respublikanın ümumi problemidir, inanırım ki, bu problem yaxın gələcəkdə öz həllini tapacaq. Burada kəhrizlərin bərpa məsələsinə toxunmaq istəyirəm. Belə ki, Dəmirçi kəndinin yuxarı hissəsində kəhrizlər var, onlar bərpa olunsa kəndin su probelmi müəyyən qədər öz həllini tapar.

Əlavə olaraq bildirim ki, ailələrin hər birində bir və ya iki uşaq var, çoxuşaqlı ailələr azdır. Uşaq pulunun verilməsi məsələsinə baxılmasını istərdim.

İcazənizlə Dəmirçi kənd sakinlərinin qaldırdığı bəzi məsələləri qeyd edim. Sakinlər kənddə insanların çoxluğunu nəzərə alaraq Kapital bank terminalının qoyulmasını istəyirlər. Çünki terminalın yoxluğu onları rayon mərkəzlərinə üz tutmağa vadar edir. Əlavə olaraq, Dəmirçi-Maxta kəndlərini birləşdirən yol həddindən artıq bərbad vəziyyətdədir. Həmin yoldan avtomobillə hərəkət zamanı çətinliklər yaranır. Yolun asfaltlanmasını xahiş edirlər. Digər bir məsələ isə Dəmirçi kəndində magistral yolun yuxarısında əkin sahəsinə yararsız olan torpaq sahələrindən gələcəkdə kənd qəbiristanlığı üçün ayrılmasıdır. Kənd böyükdür, hazırda əkinəyararlı torpaq sahələrində 7 qəbiristanlıq var. Həmin qəbiristanlıqlar əkinəyararlı torpaqlarda salınıb. Kənd camaatı qəbiristanlıqların köçürüləcəyini zənn edərək belə bir torpaq sahəsinə ehtiyac olmadığını bildirib. Lakin onlara bununla bağlı izah verilibdir ki, yeni ayrılacaq torpaq sahələri gələcəkdə salınacaq yeni qəbiristanlıq üçündür. Başqa bir məsələ Dəmirçi kəndindən Sədərək rayonu istiqamətinə marşrutun salınmasıdır. Sonuncu səsləndirmək istədiyim fikir isə ünvanlı dövlət sosial yardımıdır. Əksər insanlara ünvanlı dövlət sosial yardımı verilib, lakin 3 ay sonra dayandırılıb. Bunun səbəbini öyrənmək istərdim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Nüsrət müəllim. Amma bir halı qeyd edim ki, səsləndirdiyiniz bir çox məsələlər yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinə aiddir. Amma bu fikirlərin parlamentdə səslənməsinə etiraz yoxdur. Aidiyyəti təşkilatlar tərəfindən cavab verilər. Kimin əlavə sualı varsa, yaxud da müzakirələrə qatılmaq istəyirsə? Yoxdur? Buyurun, Vüsalə xanım.

**V.Əliyeva.** Çox sağ olun, Anar müəllim. İlk növbədə, Səbuhi müəllimə təşəkkürümü bildirirəm ki, fikirlərimizi diqqətlə dinlədi və onlar haqqında ətraflı məlumat verdi. Deyəcəyim bugünkü fikir bütün muxtar respublika əhalisini maraqlandırır. Muxtar respublikanın yayının isti, qışının da soyuq olmasına görə elektrik enerjisinin və təbii qazın limitinin tez bitməsi əhali tərfindan narazılıqla qarşılanır. Nəzərə alsaq ki, bəzi ailələr minimum əməkhaqqı ilə dolanır, bir ayın içində

onların limiti bitir və ya limit qiyməti qalxır. Bu da onların büdcəsində çətinliklər yaradır. Bu məsələnin Ali Məclisdə müzakirə olunub Milli Məclisə təklif verilməsini xahiş edirəm. Elektrik enerjisinin və təbii qaz limitlərinin ləğvi muxtar respublika əhalisi tərəfindən də rəğbətlə qarşılanacaq.

**Sədrlik edən.** Çox sağ olun, Vüsalə xanım, amma burada bir halı deyim sizə, bəlkə də məlumat verməliydim, bu məsələni Milli Məclisin deputatları öz iclaslarında qaldırıb. Burada limitin ləğvindən söhbət gedə bilməz. Limitin fərqli tətbiq edilməsini isə araşdırmaq və əsaslandırmaq lazımdır. Bu, bir günün işi deyil. Təkcə bizə də aid deyil. Çünki Naxçıvan Muxtar Respublikası ilə eyni iqlim şəraiti olan bir neçə bölgə var. Məsələn, Lerik, Yardımlı, Gədəbəy rayonları. Ona görə burada ayrıseçkilik etmək olmaz.

**V.Əliyeva.** Müəyyən güzəştlər edilsə yaxşı olar.

**Sədrlik edən.** Bu məsələni müzakirəyə hökumətlə bir yerdə çıxararıq. Təklif edirəm ki, müzakirələri sonlandıraq. Qeyd edim ki, cari məsələlərin müzakirəsində sual-cavab formatı nəzərdə tutulmayıb. Amma hökumət buradadır, əgər istəsələr qısa cavab verə bilərlər və ya sonradan yazılı yaxud da başqa formada münasibətini bildirə bilərlər. Səbuhi müəllim, buyurun cavab verə bilərsiniz.

**S.Məmmədov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

İsmayıl müəllimin qaldırdığı şəhid adlarının əbədiləşdirilməsi məsələsi ilə bağlı bizə çoxlu müraciətlər daxil olur. Müraciətlərin içərisində həm birinci Qarabağ müharibəsi, həm də 44 hünlük Vətən müharibəsi dövründən olan şərtlərə uyğun olmayan bir çox müraciətlər var. Bunlara Ali Məclislə hökumət birgə baxmalı, müəyyən həll yolları tapmalıdır. Həmçinin bu məsələdə hökumətin səlahiyyətində olmayan bəzi hallar, müəyyən şərtlər və tələblər var.

**İ.Qəribli,** *Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri.*

Onları yerli icra hakimiyyəti orqanları da verə bilir.

**S.Məmmədov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Bəli, yerli icra hakimiyyəti orqanları da verə bilir. Bu məsələ ümumi müzakirə olunmalıdır.

Yeganə xanımın qeyd etdiyi bağçaların açılması ilə bağlı ilkin fikrimi bildirdim, lakin gələcəkdə də bu məsələlərlə əlaqədar müvafiq işlər görüləcək. Çünki Babək rayonunun ən böyük qəsəbələri olan Nehrəmlə Cəhridən əhalinin çoxlu müraciəti var. Əvvəlcə sonrakı illərdə saxlanma xərcləri ilə bağlı mənbələr müəyyənləşdirməliyik. Muxtar respublikada bağçalara ciddi tələbat var. Bu, hökuməti də düşündürür. Ancaq nəzərə alın ki, Azərbaycanın digər yerlərində də bağçalarla bağlı müvəqqəti olaraq iş aparılmır. Ayrılan vəsaitlər həcmində məsələyə baxmağa çalışacağıq. Daha sonra tədarük məntəqələri ilə əlaqədar fikirlərə gəldikdə isə bildirmək istəyirəm ki, artıq ötən illər əhalidən ancaq strateji ərzaq məhsulları-kartof, soğan, taxılın alınması təmin edildi. Tamamilə Azərbaycanın digər bölgələrindən də muxtar respublikaya bu məhsulların sərbəst şəkildə daşındığını nəzərə alaraq, dövlət tərəfindən həmin məhsulların da anbarlara qəbulu dayandırıldı. Hazırda 10 min ton taxıl ehtiyatımız var, qış aylarında biz taxıl ehtiyatının böyük bir hissəsini satıb vəsaiti ilə növbəti ildə əhalidən taxıl alınması prosesini həyata keçirəcəyik. Anbarda yer yoxdur, ötən ildə məhsulu baha qiymətə – 50-60 qəpiyə əhalidən aldıq, indi bazar qiyməti aşağı düşüb, ancaq yanvar-fevral aylarında taxılın qiymətində də müəyyən artım olandan sonra strateji ehtiyatlarımızın böyük bir hissəsini satacağıq ki, növbəti təsərrüfat ilində əhalidən bunların alınmasını təmin edək. Ərzaq məhsullarının satın alınmasında sahibkarlara güzəştli şərtlərlə soyuducu anbarların tikilməsində və digər məsələlər üçün maliyyə köməkliyi etməyə hazırıq. Müəyyən ərzaq məhsulları bazarda təklif çox olduğundan yayda satıla bilmir, bunların saxlanılması üçün sahibkar da müəyyən işlər həyata keçirməlidir. Eləcə də muxtar respublikada konserv zavodları və müəyyən sənaye müəssisələri işləsə, yay aylarında məhsul bol olsa da heç bir

problem yaratmayacaq. Bununla bağlı sahibkarlardan təkliflər almışıq. Lakin taxıl məhsullarının alınması üçün gələn il hökumət artıq konkret bu işi həyata keçirəcək.

Kəndlərə marşrutların sayının artırılması ilə əlaqədar bildirmək istəyirəm ki, o, rentabelli deyil. Hökumət nəqliyyat siyasətini həyata keçirir, nəqliyyatın cari fəaliyyəti ilə məşğul olmur. Kimsə aidiyyəti üzrə müraciət etsə ki, marşrut açmaq istəyirəm ona sadəcə icazə verilir. Digər qeyd etdiyiniz məsələləri sahibkarlar həyata keçirməlidir. Sahibkar da gündə bir neçə dəfə Şərur şəhərindən Yaycı kəndinə gedən marşrut əlavə etsə, marşrutda da 3-4 nəfər olarsa, növbəti gün o, marşrutu bağlayacaq. Təsəvvür edin ki, Naxçıvan şəhərindən rayona gedənlərdə də problem var. Əsas diqqətimiz Naxçıvan şəhərindən rayon mərkəzlərinədir. Kəndlərdə buna sahibkarlar maraqlı olmalıdır. Çünki muxtar respublikada 200-dən çox kəndə bunu təşkil etmək bizim üçün çətin olar. Sadəcə olaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxs gəlir gətirəcəksə, rentabelli olacaqsa, bu işlə məşğul olacaq.

Qeyd etdiyiniz 11 milyon manat isə muxtar respublikada torpaq mülkiyyətçilərinə dotasiya üçün nəzərdə tutulan vəsaitdir. Büdcədə görülən artma və azalmalar bəzi qurumlarda struktur dəyişikliklərinin aparılması ilə bağlıdır. Məsələn, Dövlət Baytarlıq Xidmətinin ləğvi, Qida Təhlükəsizliyi Agentliyinin yaranması və.s.

Əməkhaqların vaxtında verilməməsi ilə əlaqədar nəzərinizə çatdırmaq istəyirəm ki, Maliyyə Nazirliyi tərəfindən büdcə təşkilatları üçün ayın əvvəlində qrafik nəzərdə tutulub. Azərbaycanın heç bir bölgəsində həmin ay ərzində əməkhaqların ödənilməsi həyata keçirilmir, yeganə olaraq muxtar respublikada ay ərzində bütün əməkhaqqılar verilir. Digər yerlərdə əmək müqaviləsində də qeyd edildiyi kimi, növbəti ayın 15-ə qədər ödənilir. Maliyyə Nazirliyi tərəfindən tərtib olunan qrafik bütün büdcə təşkilatlarına göndərilir, lakin büdcə təşkilatı öz işini düzgün qurmur və hesabatını hazırlayıb Maliyyə Nazirliyinə vaxtında göndərə bilmir. Müvafiq sənədlər nazirliyə gələndən sonra lazımi prosedur aparılır. Ancaq konkret qrafik var. Hansı qurumun nə vaxt əməkhaqqı alacağı məlumdur. Bir sıra qurumlarda əməkhaqqı mərkəzləşdirilmiş qaydada ödənildiyindən həmin qurumun rayon bölmələrinin həmin qrafikdən xəbərləri olmur. Bu tamamilə sistemləşdirilib. Təsərrüfathesablı müəssisələr büdcədən maliyyələşmədiyindən bizdə hər hansı bir məlumat yoxdur.

Deputat Əmir Babayev çıxışında bildirdi ki, Şərur şəhərində su-kanalizasiya sistemi çəkilişi aparıldı, sonra dayandırıldı. Biz artıq Şərur rayonunda həmin layihəni başa çatdırmışıq. Ətraf kəndlərdə bu istiqamətdə işlərin davam etdirilməsi gələcəyin işidir. Muxtar respublikada su-kanalizasiya sisteminin bərpasına 2013-cü ildən başlanılıb, davam etdirilir. Hər il bununla bağlı 10 milyon manat vəsait ayrılır. Bu vəsaitlə işlər paralel aparıldığından hər rayonda bir az iş görülüb, ona görə tam başa çatdıra bilməmişik. Ancaq Şərur rayonunda bu iş başa çatdırılıb. Şərur rayon mərkəzində, Arpaçay su anbarına yaxın ərazilərdə, böyük kəndlərdə bu işi həyata keçirmişik. Layihəyə yeni kəndlərin əlavə olunması sonrakı mərhələdədir, çünki Kəngərli rayonunun Qıvraq qəsəbəsi, Şahtaxtı və digər kəndlərində bu istiqamətdə tamamlanmamış işlərimiz var. Dövlət proqramında da bununla bağlı vəsaitlər nəzərdə tutulub. Artıq birinci layihə üzrə işlərin həyata keçirilməsi planlaşdırılır. Sonrakı dövrdə nəzərdə tutulan maliyyə mənbələri hesabına artıq həmin rayonun yeni kəndlərinin də bura əlavə olunması məsələsinə baxıla bilər. Əmir müəllim Muğanlı kənd məktəbinin stadionunun bələdiyyənin balansından alınaraq yenidən məktəbin balansına qaytarılmasını qeyd etdi. Diqqətə çatdırım ki, artıq stadion bələdiyyəyə verilibsə, onun mülkiyyətidir. Nazirlər Kabinetinin ona sərəncam vermək hüququ yoxdur. Bələdiyyə istəyərsə əmlakını hər hansı bir formada məktəbin balansına verə bilər. İdman avadanlıqları ilə bağlı müraciətinizi araşdırıb məlumat verəcəyik.

Deputat Nüsrət müəllim Dəmirçi kəndindəki müəyyən məsələləri qeyd etdi. Şəhid ailəsinə 11 min manat birdəfəlik vəsaitin verilməməsi ilə bağlı qeyd götürdük, səbəblərini araşdıracağıq. Ötən dövrlərdə də belə hallar olub. Araşdırdıqdan sonra məlum olub ki, vəsait bir neçə aydır müəyyən bankda hesaba yüklənib, lakin ailə üzvlərinin bundan xəbəri olmayıb. Bildirdiyiniz digər şəhid ailəsinə avtomobilin verilməsi ilə əlaqədar, bir çox müraciət olur. Diqqətinizə çatdırım ki,

avtomobil həkimin xüsusi müraciəti əsasında, şəxsin hərəkət qabiliyyətinin olmaması müqabilində verilir. Əgər müvafiq şəxs bu şərtlərə uyğundursa onu nəqliyyat vasitəsilə təmin etmək problemimiz olmayacaq. Dəmirçi kəndində su-kanalizasiya sistemi demək olar başa çatmaq üzrədir. Aid qurumun məlumatına əsasən orada təxminən 25-30 min manat dəyərində iş qalıb. Ümumilikdə, Sədərək rayonunda su-kanalizasiya sisteminin sürətli bərpasını qarşıdakı bir neçə ay ərzində həyata keçirəcəyik. Düzdür, orada sutəmizləyici qurğuların tikilməsi sonrakı dövrlərə qalacaq, çünki, o əlavə vəsait tələb edən layihədir. Amma orada tamamlanmamış işlərimizi bitirəcəyik. Kəhrizlərin bərpası ilə əlaqədar muxtar respublikada mütəmadi olaraq işlər görülür, həmin ərazidə olan kəhrizlər hansıdırsa qeydlər götürüldü və həmin kəhrizlərin bərpası həyata keçiriləcək. Bunun üçün müəyyən vəsaitlər ayırmağa hazırıq. Əvvələr kəhrizlərdən istifadə ilə bağlı vəsaitin yığılması və kəhrizlərin bərpası işi bələdiyyələrin öhdəliyində idi. Qeyd etdiyiniz uşaq pulunun verilməsi ilə bağlı nəzərinizə çatdırmaq istəyirəm ki, bu Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin belə bir səlahiyyəti yoxdur. Bu, mərkəzi hökumətin qəbul edəcəyi qərara bağlıdır. Dəmirçi kəndində bank terminalının quraşdırılması ilə əlaqədar qeyd götürüldü, aid quruma tapşırıq veriləcək ki, məsələyə baxılsın. Dəmirçi-Maxta yoluna asfalt örtüyünün salınması məsələsi tam həll olunacaq, çünki vəsaitimiz var. Buna əmin ola bilərsiniz. Qəbiristanlıq üçün torpaq sahələrinin ayrılması məsələsinə gəldikdə isə bu sahədə də kənd əhalisi arasında müəyyən pərakəndəlik var. Yəni əhali kəndin bir istiqamətində, özünə yaxın ərazidə sahələr müəyyənləşdirmək istəyir. Əgər torpaq bələdiyyəninin mülkiyyətindədirsə, özü qərar verib kənddə yer ayıra bilər, lakin dövlət mülkiyyətindədirsə hökumət tərəfindən heç bir etiraz yoxdur. Digər qurumlardan müvafiq rəylər alındıqdan sonra məsələyə baxıla bilər. Marşrut xətti ilə əlaqədar suala isə cavabım biraz əvvəl qeyd etdiyim kimidir. Ünvanlı dövlət sosial yardımının dayandırılması ilə bağlı müraciətinizə baxılacaq. Yardımın verilməsində müəyyən şərtlər var, çox təəssüf ki, müraciət edənlərin hamısı düşünür ki, ona sosial yardım verilməlidir. Bildirim ki, ünvanlı dövlət sosial yardımının verilməsini bu il bir neçə dəfə artırmışıq. Nəzərdə tutulan vəsait kifayət etmədi. Ali Məclisə müraciət ünvanlamışıq ki, maliyyələşmənin davam etdirilməsi üçün əlavə 6 milyon manat vəsait lazımdır. Təyin olunan yardımın bir müddət sonra dayanmasına səbəb şəxsin işlə təmin olunması və ya digər hallar ola bilər. Belə ki, əmək müqavilələrinin reyestr uçotunda şəxsin işlə təmin olunması və müəyyən miqdarda gəlir əldə etməsi görünür. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən haqqı ödənilən 1000 iş yeri yaradıldı, lakin əməkhaqqının azlığından bir çoxları bundan imtina etdi.

Deputat Vüsalə xanım işıq və qaz limitləri ilə bağlı çıxışında qeyd etdi. Diqqətə çatdırım ki, bu, Azərbaycan Respublikasının Tarif Şurasının qəbul edəcəyi qərarla bağlıdır.

**Sədrlik edən.** Sağ olun, Səbuhi müəllim. Sual-cavab formatı olmasa da, qaldırılan məsələlərə aydınlıq gətirildiyi üçün hökumətə təşəkkürümü bildirirəm.

**S.Məmmədov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Çalışdım ki, ünvanlanan sualların bir neçəsinə aydınlıq gətirim, bəzilərini qeyd etmişəm, onları həyata keçirmək imkanlarımız var. Həlli daha vacib olanları ön plana çəkmək mütləqdir. Deputatlar yerlərdəki əhalinin problemlərini bizə çatdıran şəxslərdir. İstəyirik ki, ayrılan 500 milyon manat vəsaitdən daha səmərəli istifadə olunsun. Bunun üçün də sizin təklifləriniz mütləq nəzərə alınacaq.

**Sədrlik edən.** Çox sağ olun, Səbuhi müəllim.

**S.Məmmədov,** *Naxçıvan Muxtar Respublikasının Baş naziri.*

Çox sağ olun.

**Sədrlik edən.** Ümumiyyətlə dövlət idarəetməsində şəffaflıq olduğu kimi, həm də hesabatlılıq olmalıdır. Parlamentin nəzarət funksiyası həm büdcənin qəbuluna, həm də büdcənin icrasına nazarət etməkdədir. Deputatlara şərait yaradılacaq ki, onlar müvafiq qurumlara sorğular göndərsin.

İclasın stenoqramı hazırlanıb Ali Məclisin rəsmi internet saytında yerləşdiriləcək, həmçinin dərc olunacaq.

Gündəlikdə duran məsələlər bitdiyi üçün icazənizlə iclası bağlı elan edirəm.

Sağ olun.